## “Konkret fakt verən yoxdur"

DİN: “Danışırlar, yazırlar ki məktəbdə “patı” satırlar, polis münəccimlik etməlidir?”



**”Konkret fakt verən yoxdur. Danışırlar, yazırlar ki məktəbdə ”patı” var, ”patı” satırlar. Polis münəccimlik etməlidir? Faktsız olan bütün iddialar əsassızdır”.**

Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib.

”Məktəbi, təhsili, müəllimi qorumaq hər bir vətəndaşın təməl vəzifəsidir”, - DİN rəsmisi əlavə edib.



### Tramp özünü ABŞ-ın növbəti prezidenti adlandırıb

**Ağ Evin keçmiş sahibi Donald Tramp özünü ABŞ Prezidenti Cozef Baydendən sonra növbəti şəxs adlandırıb.**

”Report” TASS-a istinadən xəbər verir ki, bu barədə ”New York Post” qəzeti məlumat yayıb.

*Trampın mətbuat xidməti bu sözləri şərh etməyib.*


№ 15 (5537), 2022-ci il

Qiymeti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 27 yanvar 2022-ci il (cümə axşamı)




## İcazə verildi

Daha iki ölkə vətəndaşları təyyarə ilə Azərbaycana gələ biləcək

**Hava nəqliyyatı vasitəsilə daha 2 ölkənin vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilib.**

Nazirlər Kabineti burnunla bağlı ”Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” qərarda müvafiq dəyişiklik edib.

Həmin ölkələr Belarus və Rumıniyadır.

Bu ölkələrin vətəndaşlarının hava nəqliyyatı vasitəsilə Azərbaycana giriş-çıxışı üçün tələblər aşağıdakılardır:

- yaşı 18-dən yuxarı olan şəxslərə münasibətdə - yalnız COVID-19 pasportu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd əsasında...

(səh.2)



## "Ukrayna ilə bağlı mövqeyimizin dəyişməsi mümkün deyil"

Ərdoğan: “Biz Rusiyaya onun bəzi tələblərinin niyə qəbuledilməz olduğunu izah etməliyik”

**”Türkiyə Ukraynanın ərazi bütövlüyü və suverenliyinə lap əvvəldən dəstək verib. Rusiyanın Krım başda olmaqla Ukraynanın ərazi bütövlüyünə zərər yetirən addımlarına qarşı bəlli bir mövqe nümayiş etdirdik. Bu mövqeyimizin dəyişməsi mümkün deyil”.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə verdiyi müsahibə zamanı deyib.

Ərdoğan Rusiyanın Ukraynaya silahlı hücum etməyəcəyinə, işğala əl atmayacağına ümid etdiyini qeyd edib: ”Belə bir addım nə Rusiya, nə də bölgəmiz üçün ağıllı iş ola bilməz. Biz Rusiyaya onun bəzi tələblərinin niyə qəbuledilməz olduğunu izah etməliyik. Biz cənab Putini ölkəmizə dəvət etmişik. Onunla ikitərəfli danışıqlar apararaq müəyyən addımlar atmaq istəyirik”.

## İran hər zaman Azərbaycanın yanında olacaq

Baş Qərargah rəisi: “Təcrübə mübadiləsi üçün qarşılıqlı səfərləri artırmaq lazımdır”



**İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb. Azərbaycanın ərazilərini işğaldan etməsi İranı sevindirir.** Biz öz ölkəmizin ərazi bütövlüyü kimi, Azərbaycanın da ərazi bütövlüyünə həssaslıqla yanaşırıq.

(səh.2)

# İctimaiyyətə açıqlanmayacaq

ABŞ Rusiyanın təhlükəsizliklə bağlı təklifinə yazılı zəmanət verib

**ABŞ-ın Moskvadakı səfiri Con Sallivan dünən Rusiya XİN-ə gəlib.**

**Səfirin avtomobili nazirliyin binasına saat 19.30 radələrində (Bakı vaxtı ilə 20.30) yaxınlaşıb.**

**Qeyd edək ki, bir müddət əvvəl CNN televiziyası Vaşinqtonun Rusiyaya təhlükəsizliklə bağlı yazılı zəmanət verəcəyini bildirmişdi.**

**Nəhayət ABŞ-ın Moskvadakı səfiri Con Sallivanın Rusiya XİN-in binasından ayrıldığı haqda məlumat verilib.**

**Səfir jurnalistlərin suallarını cavablandırmayıb. Diplomat burada yarım saatdan çox vaxt keçirib.**

**Ən son məlumata görə, ABŞ-ın Moskvadakı səfiri Con Sallivan Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşkoya Rusiyanın təhlükəsizliklə bağlı ikitrərəfli saziş layihəsinə cavab təqdim edib.**




(səh.2)



## Orqan transplantasiyası icbari tibbi sığorta çərçivəsində qarşılanacaq

**Cari ildən orqan transplantasiyasının limitli şəkildə icbari tibbi sığorta çərçivəsində qarşılanması nəzərdə tutulub.**

Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, ”Xidmətlər Zərfinə daxil olan tibbi xidmətlərin siyahısı və tarifləri” cədvəlinə ümumilikdə 2550 sayda tibbi xidmət daxildir.

*Xatırladaq ki, Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən, 2022-ci ilin yanvarın 1-dən Azərbaycanda ”İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında” qanun qüvvəyə minib.*

## "Töhmət ləğv olunmalıdır"

Fazil Mustafa: “Təhsil naziri şəxsən o müəllimdən üzr istəməlidir”





**165 nömrəli orta məktəbdə şagirdlərin tədris prosesinə uyğun olmayan davranışı ictimaiyyətdə ciddi rezonans doğurub.**

Əksəriyyət şagirdlərin dərsi pozan saymazyana hərəkətlərini sərt şəkildə qınayıblar. Məsələ ictimailəşəndən sonra videogörüntü ilə bağlı məktəb rəhbərliyi tərəfindən araşdırma aparılıb. Nəticədə dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət verilib.

Üstəlik, məktəbin direktor müavinləri ilə bağlı tənbeh tədbirləri görülməsi üçün təqdimat verilib. Qeyd olunub ki, hüquq-mühafizə orqanlarının əməkdaşları valideyn və şagirdlərin izahatlarını alıblar.

(səh.5)

## 18 nəfər vəfat edib

Koronavirusa yoluxanların sayı 3 mini keçdi




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 3 192 yeni yoluxma faktı qeydə alınıb, 1 259 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.

*İndiyədək ölkədə ümumilikdə 640 148 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 619 050 nəfər müalicə olunaraq sağalıb, 8 650 nəfər vəfat edib, aktiv xəstə sayı 12 448 nəfərdir.*

## Cəbrayılda daha bir erməni hərbçisinin meyiti tapıldı

Qalıqlar Ermənistan tərəfinə təhvil verilib



**İşğaldan azad olunan ərazidə daha bir erməni hərbçisinin meyiti aşkarlanıb.**

Bu barədə Azərbaycanlı Əsir və Girovlarla bağlı Məlumat Mərkəzinin koordinatoru Əhməd Şahidov deyib.

O bildirib ki, erməni hərbçisinin meyiti dünən axşam saatlarında işğaldan azad olunan Cəbrayıl rayonu ərazisində aşkarlanıb.

”Azərbaycan, rus və ermənilərdən ibarət axtarış qrupunun keçirdiyi əməlliyyat-axtarışlar zamanı meyit aşkar edilib. Meyit Ermənistana təhvil verilib”, - Ə.Şahidov qeyd edib.

## Özümüz olaq...




Niyə “Səs Azərbaycan”da milli musiqimiz ingilisdilli musiqiyə yenilməlidir?

(səh.2)

## Deputatların təklifinə baxılacaq

Azərbaycanda pensiyaya çıxma şərtləri yumşaldıla bilər



(səh.3)

# İctimaiyyətə açıqlanmayacaq

## ABŞ Rusiyanın təhlükəsizliklə bağlı təklifinə yazılı zəmanət verib




**ABŞ-ın Moskvadakı səfiri Con Sallivan dünən Rusiya XİN-ə gəlib.**

**Səfirin avtomobili nazirliyin binasına saat 19.30 radələrində (Bakı vaxtı ilə 20.30) yaxınlaşıb.**

**Qeyd edək ki, bir müddət əvvəl CNN televiziyası Vaşinqtonun Rusiyaya təhlükəsizliklə bağlı yazılı zəmanət verəcəyini bildirmişdi.**

Nəhayət ABŞ-ın Moskvadakı səfiri Con Sallivanın Rusiya XİN-in binasından ayrıldığı haqda məlumat verilib.

Səfir jurnalistlərin suallarını cavablandırmayıb. Diplomat burada yarım saatdan çox vaxt keçirib.

Ən son məlumata görə, ABŞ-ın Moskvadakı səfiri Con Sallivan Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşkoya Rusiyanın təhlükəsizliklə bağlı ikitrərəfli saziş layihəsinə cavab təqdim edib.

Məlumatda göstərilir ki, ”görüş zamanı diplomatik missiyanın rəhbəri Vaşinqtonun Rusiyanın təhlükəsizliklə bağlı təqdim etdiyi ikitrərəfli saziş layihəsinə cavabını təqdim edib”.

Görüş ABŞ tərəfinin xahişi ilə baş tutub.

ABŞ Rusiyaya göndərdiyi yazılı cavabı ictimaiyyətə yaymayacağını açıqlayıb.

APA-nın xəbərinə görə, bu barədə ABŞ dövlət katibi Entoni Blinken mətbuata açıqlamasında deyib.

Dövlət katibi bildirib ki, dünən ABŞ-ın Rusiyadakı səfiri Ceyk Sallivan yazılı cavabı Rusiya XİN-ə təqdim edib. Blinken bildirib ki, təqdim olunan sənəddə Rusiyanın təhlükəsizliyi təhdid edən hərəkətləri ilə bağlı ABŞ, onun müttəfiqlərinin və tərəfdaşlarının narahatlıqları əks olunub. Həmçinin sənəddə Rusiyanın qaldırdığı məsələlərin praqmatik qiymətləndirilməsi və ABŞ-ın öz təklifləri əks olunub: ”Biz sənəddə də bəyan etmişik ki, əsas prinsiplər var və biz bu prinsipləri müdafiə etməyə sadiqik. Bura Ukraynanın suverenliyi və ərazi bütövlüyü, hər bir ölkənin özünün müttəqiflərini seçməklə bağlı suveren hüququ daxildir”.

**Dövlət katibi deyib ki, sənəddə qarşılıqlı şəffaflıq addımlarının atılmasının mümkünlüyünə də toxunulub. Bura etimadın artırılması üçün Avropada hərbi təlimlərin, manevrlərin keçirilməsi məsələsi, silahlara nəzarət mexanizmi daxildir:** ”Əgər danışıqlar xoş niyyətlə davam edərsə bizim, müttəfiqlərimizin və tərəfdaşlarımızın narahatlığı nəzərə alınarsa, biz qarşılıqlılıq prinsipinə əsaslanaraq Rusiyanın qaldırdığı məsələlərə baxacağıq. Sənəddə mənim Kiyev, Berlin və Cenevrədə dediklərim əks olunub. Biz dialoqa açığıq və diplomatiyaya üstünlük veririk. Rusiya Ukraynaya qarşı aqressiyanı dayandırarsa və de-eskalasiya istiqamətində addımlar atarsa biz komunikasiyanın mümkünlüyünə və irəli doğru getməyə inanırıq.”

ABŞ dövlət katibi yazılı sənəd hazırlanarkən bunun Ukrayna və Avropadakı müttəfiqlərlə koordinasiya olunduğunu vurğulayıb: ”Biz həftələrlə müzakirə apardığımız tərəfdaşlarımızın fikir və təkliflərini də Moskvaya təqdim etdiyimz sənəddə nəzərə almışıq”.

**ABŞ dövlət katibi NATO-nun da ayrıca olaraq öz yazılı sənədini Moskvaya təqdim etdiyini qeyd edib:** ”Biz sənədi ictimaiyyətə yaymayacağıq çünki inanırıq ki, diplomatiyada uğur şansı o zaman olur ki məxfi danışıqlar imkanı olsun və bizim Rusiyanın oxşar addımı atacağı ilə bağlı ümidimiz və gözləntimiz var. Ümid edirəm ki, Moskva sənədlə tanış olduqdan sonra mən qarşıdakı günlərdə Lavrovla görüşəcəyəm və biz növbəti addımları müzakirə edə biləcəyik. Diplomatiyaya gəldikdə, bizim ciddiliyimiz və qərarlı olmağımızla bağlı heç bir şübhə olmamalıdır.”

ABŞ dövlət katibi qeyd edib ki, diplomatiya və dialoq istiqamətində addımlar atılmaqla yanaşı, Ukraynanın öz müdafiə qabiliyyətini artırması üçün ABŞ və müttəfiqləri bu ölkəyə hərbi yardım göndərir və bu proses davam edəcək.




# Azərbaycanın və Pakistanın XİN başçıları telefonla danışıb

## Nazirlər iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə inkişafını məmnunluqla qeyd ediblər

**Yanvarın 26-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Pakistan İslam Respublikasının xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi arasında telefon danışığı olub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən “Şərq”ə bildiriblər ki, nazirlər iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə yüksək səviyyədə inkişafını məmnunluqla qeyd ediblər. Həm ikitərəfli, həm də çoxtərəfli platformalarda əməkdaşlığın uğurla həyata keçirildiyi vurğulanıb. Nazirlər iki ölkə arasında ötən il ərzində həm Xarici İşlər nazirlikləri səviyyəsində, həm də digər qurumlar arasında həyata keçirilən təmasların intensivliyini məmnunluqla bildiriblər. Cari ildə iki qardaş ölkə arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər Azərbaycan-Pakistan Hökumətlərarası Birgə Əməkdaşlıq Komissiyasının ötən ilin dekabr ayında Bakıda keçirilən iclasına istinad edərək, əməkdaşlıq münasibətlərinin bütün sahələr üzrə genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazirlər, həmçinin ötən il dekabrın 19-da İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının Əfqanıstandakı humanitar vəziyyətlə bağlı İslamabadda keçirilən növbədənkənar iclasının nəticələri barədə fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı xarici işlər naziri Məhdum Şah Mahmud Qureşi azərbaycanlı həmkarını İslam Əməkdaşlıq Təşkilatı Xarici İşlər Nazirləri Şurasının İslamabadda keçiriləcək növbəti, 48-ci iclasına dəvət edib.

*Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər regional və beynəlxalq məsələləri müzakirə ediblər.*

# İcazə verildi

## Daha iki ölkə vətəndaşları təyyarə ilə Azərbaycana gələ biləcək



**Hava nəqliyyatı vasitəsilə daha 2 ölkənin vətəndaşlarının və həmin ölkələrdə daimi yaşayan digər ölkə vətəndaşlarının, habelə vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına giriş-çıxışına icazə verilib.**

Nazirlər Kabineti burnunla bağlı ”Xüsusi karantin rejiminin müddətinin uzadılması və bəzi məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı tədbirlər barədə” qərarda müvafiq dəyişiklik edib.

Həmin ölkələr Belarus və Rumıniyadır.

Bu ölkələrin vətəndaşlarının hava nəqliyyatı vasitəsilə Azərbaycana giriş-çıxışı üçün tələblər aşağıdakılardır:

- yaşı 18-dən yuxarı olan şəxslərə münasibətdə - yalnız COVID-19 pasportu (COVID-19-a qarşı tam peyvənd olunmasını və ya COVID-19-dan sağalaraq immunitetə malik olmasını təsdiq edən sənəd) və uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd əsasında;
- 1-18 yaş arasında olan şəxslərə münasibətdə - yalnız uçuşdan əvvəl 72 saat ərzində verilmiş COVID-19-a dair PCR testinin neqativ nəticəsini təsdiq edən sənəd əsasında.

Həmin şəxslər Azərbaycan Respublikasını tərk edərkən onlardan COVID-19-a dair PCR testi tələb olunmur.




# Tərəfdaş təşkilatlar layihəni dəstəkləsin!

## Gürcüstan Azərbaycanla birgə yaradacağı gömrük məntəqəsi ilə bağlı çağırış edib

**”Ötən il Gürcüstan və Azərbaycan arasında ”İpək yolu” birgə gömrük-buraxılış məntəqəsinin yaradılmasını nəzərdə tutan saziş imzalanıb”.**

”Report”un yerli bürosu xəbər verir ki, bunu Gürcüstanın maliyyə naziri Laşa Xutsişvili Beynəlxalq Gömrük Gününə həsr olunan tədbirdə çıxışında deyib.

O, tərəfdaş təşkilatları bu layihənin həyata keçirilməsini dəstəkləməyə çağırıb.

Nazir, həmçinin qeyd edib ki, 2021-ci ildə Gürcüstan, Türkiyə və Azərbaycan arasında gömrük sahəsində yeni üçtərəfli əməkdaşlıq formatının əsası qoyulub.

L.Xutsişvili gömrük sahəsində ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyini də vurğulayıb.

# ABŞ vətəndaşlarını Ukraynanı tərk etməyə çağırdı

## Ölkədə təhlükəsizlik vəziyyəti gözlənilməz olaraq qalır

**ABŞ-ın Ukraynadakı səfirliyi Amerika vətəndaşlarını Ukraynanı tərk etməyə çağırıb.**

Milli.Az xəbər verir ki, səfirliyin yaydığı bəyanatda deyilir:

”Rusiyanın artan hərbi əməliyyat riskini nəzərə alaraq Ukraynada təhlükəsizlik vəziyyəti gözlənilməz olaraq qalır və onun qəfil daha da pisləşməsi riski var. ABŞ-ın Ukraynadakı səfirliyi ABŞ vətəndaşlarını kommersiya nəqliyyatından və ya başqa seçimlərdən istifadə edərək Ukraynanı dərhal tərk etməyi düşünməyə çağırır”.

Çərşənbə günü ABŞ dövlət katibinin müavini Uendi Şerman bildirib ki, Rusiya fevralın ortalarında Ukraynaya hücum edə bilər.

# "Gürcüstana qapılar hər zaman açıqdır"

## Səfir: “3+3” platforması etimadın yaradılmasına kömək edir”



**”Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında görüşlər konstruktiv olub”. Bunu Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov keçirdiyi mətbuat konfransında deyib. Səfir bildirib ki, proseslər mürəkkəbdir, ancaq təmas var və olması vacibdir:**

”Hökumətlər arasında kontaktın olması müsbət atmosfer yaradır. Düşünürəm ki, belə görüşlər, təmaslar optimizm vəd edir”. Üç ölkənin dini konfessiya rəhbərləri arasında görüşə toxunan Boçarnikov deyib ki, belə görüşlər siyasi proseslərə dəstək verir, etimadın yaradılmasına kömək edir. Mixail Boçarnikov bəyan edib ki, Avrasiya İqtisadi Birliyinə qoşulub-qoşulmamaq Azərbaycanın suveren hüququdur. Bununla bağlı qiymətləndirmə etmək doğru olmaz. Səfir Rusiya ilə Azərbaycan arasında quru sərhədlərinin nə zaman açılacağai ilə bağlı suala da cavab verib: ”Epidemioloji vəziyyət normallaşdıqdan sonra ölkələr arasında quru sərhədləri açıla bilər. Lakin bununla belə hava yolları açıqdır və Azərbaycanla Rusiyanın müxtəlif şəhərləri arasında hava reysləri həyata keçirilir. Bu reyslər həm vətəndaşların vacib səfərləri, həm turizm səfərlərinin həyata keçirilməsini təmin edir”.

Rusiyanın Azərbaycandakı səfiri vurğulayıb ki, ötən il Rusiyadan iki biznes missiya Azərbaycana səfər edib: ”Keçirilən biznes forumlarda iqtisadi sahədə əməkdaşlıq müzakirə olunub ki, bura Qarabağda fəaliyyət də daxildir. İndiyədək 14 Rusiya şirkəti Qarabağda yenidənqurma işlərində iştirak etmək üçün müraciət edib. Bu sahələrə kənd təsərrüfatı, tikinti materialları, dəmiryolu xətti, enerji obyektlərinin tikilməsi daxildir. Lakin bu şirkətlərin neçəsinin müraciətinin qəbul olunacağı hələ bəlli deyil”.

**“Ötən il Azərbaycan və Rusiya siyasi əlaqələrinin dinamikası yüksək olub”**

**Mixail Boçarnikov əlavə edib ki, Azərbaycanla iqtisadi sahədə aktiv əməkdaşlıq var. Səfir ötən il siyasi əlaqələr dinamikasının yüksək olduğunu diqqətə çatdırıb:** ”Ötən il prezidentlər arasında aktiv təmas olub, Azərbaycan və Rusiya prezidentləri 4 dəfə görüşüblər. O cümlədən, parlament səviyyəsində də əməkdaşlıq yüksək olub, Parlament sədrinin Moskvaya səfəri, Rusiya baş nazirinin müavininin Azərbaycana səfərləri olub. Müxtəlif aylarda Rusiya XİN rəhbəri Sergey Lavrov azərbaycanlı həmkarı ilə görüşlər keçirib, telefon əlaqəsi saxlayıb”. M.Boçarnikov ötən il 11 ay ərzində iki ölkə arasında ticarət dövriyyəsinin 2,9 milyard ABŞ dolları olduğunu və dekabr ayı ilə birgə bu rəqəmin 3 milyarda çata biləcəyini vurğulayıb.

Rusiyalı səfir əlavə edib ki, ”3+3” platforması etimadın yaradılmasına kömək edir: ”Humanitar, mədəni, iqtisadi münasibətlərə, regionda kommunikasiya və nəqliyyatın açılmasına kömək edəcək”. Gürcüstanın bu formata qoşulması ilə bağlı səfir bildirib ki, bu, həmin ölkənin qərarıdır, Gürcüstan nə zaman qoşulmaq istəsə, buna hazır olsa, qapı açıqdır.

**“Rusiya öz təkliflərinə dair ABŞ-dan yazılı cavab gözləyir”**

**Boçarnik ABŞ-Rusiya gərginliyindən də söz açıb. Səfir diqqətə çatdırıb ki, danışıqlar əsasında təhlükəsizliklə bağlı hüquqi məcburi sənəd istəyi dayanır:** ”Hazırda ABŞ-dan cavab gözləyirik. Tərəflərin münasibətlərinə toxunan səfir bildirib ki, Rusiya NATO-nun sərhədlərinin genişləndirilməməsini istəyir. O, NATO-nun Rusiya sərhədlərində hücum xarakterli silahların yerləşdirilməsindən narahat olduğunu deyib: ”Hərbi alyans və Rusiya arasında dialoq var, danışıqlar keçirilir. Rusiya öz təkliflərinə dair bu həftə Amerikadan yazılı cavab gözləyir”.

**“KTMT Qazaxıstanı tərk etdi...”**

**Rusiya səfiri KTMT-nin Qazaxıstanda həyata keçirdiyi əməliyyatdan danışıb:** ”Qazaxıstanda baş verənlərlə bağlı Prezident Tokayev KTMT-nin iclasında ətraflı şəkildə məlumat verib. Bu, iqtisadi məsələlərlə bağlı etiraz idi, lakin sonra bu məsələ ikinci plana keçdi və ölkədə iğtişaşlar başladı. Blok üzvü olaraq Qazaxıstan blokun razılaşmasındakı müvafiq bəndə uyğun olaraq yardım istədi. Ora göndərilən KTMT qüvvələri strateji və humanitar əhəmiyyətli obyektləri mühafizə edirdi. Ölkədə vəziyyət sabitləşdikdən sonra ora göndərilən qüvvələr Qazaxıstanı tərk etdi. Rusiya ilə yanaşı digər qonşu ölkələr də Qazaxıstana dəstək verdi”. Boçarnikov yekun nəticə olaraq hərbi blokun operativ şəkildə çətinliklərə cavab verə biləcəyini nümayiş etdirdiyini əlavə edib.

**İsmayıl**

# İran hər zaman Azərbaycanın yanında olacaq

## Baş Qərargah rəisi: “Təcrübə mübadiləsi üçün qarşılıqlı səfərləri artırmaq lazımdır”

**İran hər zaman Azərbaycanın ərazi bütövlüyünü tanıyıb və suverenliyinə hörmətlə yanaşıb. Azərbaycanın ərazilərini işğaldan etməsi İranı sevindirir. Biz öz ölkəmizin ərazi bütövlüyü kimi, Azərbaycanın da ərazi bütövlüyünə həssaslıqla yanaşırıq.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmmədhüseyn Baqeri deyib.

O bildirib ki, İran Azərbaycan ilə hərbi sahədə əməkdaşlıqda maraqlıdır. Təcrübə mübadiləsi üçün qarşılıqlı səfərləri artırmaq lazımdır. İran ordusu hərbi-tibbi və hərbi-texniki sahələrdə əməkdaşlıq imkanlarına malikdir. Qarşılıqlı əməkdaşlıq hər iki dövlətin ordusunun daha da güclənməsinə töhfə verə bilər.

Məhəmmədhüseyn Baqeri qeyd edib ki, İran heç vaxt öz ərazisindən Azərbaycan əleyhinə istifadə olunmasına icazə verməz. İran Azərbaycan Prezidentinin regionda ”3+3” formatında əməkdaşlıq əlaqələrinin qurulması təklifini dəstəkləyir. Bölgə dövlətləri regiondakı problemləri həll etmək imkanına malikdir.

”Biz birmənalı şəkildə bəyan edirik ki, İran hər zaman Azərbaycanın yanında olacaq”, - deyən general-leytenant Məhəmmədhüseyn Baqeri Azərbaycanın İran üçün dost və qardaş dövlət olduğunu bildirib.

# Nikol Paşinyan yenə koronavirusa yoluxub



**Ermənistanın baş naziri Nikol Paşinyan koronavirusa yoluxub.**

Ermənistan KİV-lərin məlumatına görə, bu barədə hökumətin mətbuat xidməti bildirib.

Qeyd olunur ki, N.Paşinyanın verdiyi koronavirus testi müsbət nəticələnib və hazırda baş nazir özünütəcrid rejiminə keçib. Xəstəliyin simptomsuz keçdiyi bildirilir.

*Xatırladaq ki, N.Paşinyan 2020-ci ilin iyununda da koronavirusa yoluxmuşdu.*

# Ərdoğanın vasitəçiliyi sonuncu şansdır

## Rusiya aqressivləşir, müharibə riski gündəmdən qalxmayıb



Kreml indiki böhranlı vəziyyətdən çıxmaq üçün Türkiyəni geri çevirməməlidir. Çin və İran istənilən vaxt Moskvanı meydanda tək buraxa bilər

**İsmayıl Qocayev**

**Rusiyanın "Siyasi Araşdırmalar Mərkəzi"nin direktoru Sergey Markov Türkiyənin rəsmi Moskva və Kiyev arasında vasitəçi olmasını şərh edib. Analitik bildirib ki, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanın Moskva-Kiyev arasında vasitəçi olmaq, həmçinin Ankarada görüş keçirmək təşəbbüsü düzgün və zamanında edilmiş təklifdir. Politoloqa görə, Ərdoğan Ukraynanın daxili probleminə müraciət etməklə müasir beynəlxalq siyasətin ən vacib problemlərindən birinə toxunur:**

"Bu problem çoxlarını narahat edir və onun münasibətlərin yaxşılaşdırılmasına töhfəsini verməyə çalışması faktının özü mühümdür".

Xatırladaq ki, yanvarın 21-də Türkiyə prezidenti Rusiya və Ukrayna arasında münasibətlərin nizama salınmasında vasitəçilik etməyə hazır olduğunu bildirib. Ərdoğan Ukraynaya səfər etmək, həmçinin Rusiya rəhbəri Vladimir Putinlə telefon danışığı aparmaq niyyətində olduğunu açıqlayıb. Türkiyə lideri hər iki tərəflə yüksək münasibətlərə sahib olduğunu vurğulayıb.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiya və Ukraynaya ən yaxın dövlət Türkiyədir. Professorun qənaətincə, Türkiyənin son illərdəki qlobal fəaliyyəti təqdirəlayiqdir:**
"Qardaş ölkə bütün təzyiqlərə, hücumlara rəğmən, dünyanın aparıcı ölkələrindən birinə çevrilib. Hərbi sənayesinə görə dünya dövlətləri arasında ilk beşliyə düşüb. Güclü dövlətlər Türkiyə ilə hesablaşmaq məcburiyyətindədir. Rusiyanın indiki böhranlı vəziyyətdən çıxmaq üçün yeganə şansı Türkiyədir. Qərb ölkələri Ukrayna məsələsinə görə Rusiyanı sıxışdırır. Çin və İran öz maraqlarına uyğun müvəqqəti Moskvanın yanında dayanır. Hər iki ölkə istənilən vaxt Kremli tək buraxmağa hazırdır. Çinin Rusiyanın uzaq şərqində gözü olduğu bəllidir. Yaponiya Rusiya tərəfindən işğal olunmuş Kuril adalarını geri almaq üçün fürsət gözləyir. ABŞ isə ilk növbədə Rusiyanın parçalanmasını istəyir. Böyük ərazilərə sahib olan Rusiya dünya üzrə təbii sərvətlərin 21 faizinə malikdir. Şimal qonşumuz neft-qaz ixracatına görə ön sıralarda qərar tutur. Rusiya meşə materialları, qızıl və almaz yataqları ilə zəngin ölkədir. Moskva riskləri dəyərləndirərək Ankaranın vasitəçilik təşəbbüsünü geri çevirmir. Meydanda tək qaldığının fərqindədir. Ukrayna Prezidenti Vladimir Zelenski peşəkar siyasətçi olmasa da, Türkiyə liderinin təklifini müsbət dəyərləndirib. Çox güman, Ərdoğanın Ukrayna səfərində bu məsələ ətraflı müzakirə olunacaq".

C.Nuriyev vurğulayıb ki, Türkiyənin təklifini geri çevirməyən Rusiya öz cığallığından da əl çəkmir: "Moskva Donbass nümayəndələrinin də görüşlərdə iştirakına şərt qoşur. Bildiyim qədər Ərdoğan buna razılıq vermir. Moskva vaxtı ilə Qarabağın qondarma rejiminin də danışıqlarda "tərəf" olmasını israrla gündəmə gətirirdi. Ancaq ümummilli lider Heydər Əliyev də, cənab Prezident də buna qətiyyətlə qarşı çıxırdılar və reallaşmasına imkan vermirdilər. Kreml eyni senarini Ukraynada tətbiq etmək istəyir. Görünür, Moskva bu addımı ilə təmasların baş tutmamasına çalışır. Vasitəçilik təşəbbüsü reallaşmasa belə hər halda cənab Ərdoğanın barışdırıcı missiyası Türkiyənin dünyada əsas siyasi oyunçulardan biri olduğunu təsdiqləyir. Eyni zamanda qardaş Türkiyənin sülh tərəfdaşı və sülh carçısı olduğunu bütün dünyaya isbatlayır. Türkiyə lideri heç vaxt haqsız tərəfi dəstəkləməyib və haqq bildiyini deyib. Ankara hökuməti Krımı Ukrayna ərazisi kimi tanıdığını dəfələrlə bəyan edib. Rusiya həqiqətən son dönəmlər çox aqressivləşib".



# "Müharibədən sonrakı reallıqlar və media"

## 3 günlük təlimlər başa çatıb

**Yanvarın 24-26-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, Medianın İnkişafı Agentliyi, Xarici İşlər Nazirliyi və Müdafiə Nazirliyinin birgə təşkil etdiyi "Müharibədən sonrakı reallıqlar və media" başlıqlı 3 günlük təlimlər başa çatıb.**

Təlimin ilk günü BMTM-də Mərkəzin İdarə Heyətinin sədri Fərid Şəfiyev və Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov açılış nitqi ilə çıxış ediblər. Fərid Şəfiyev bildirib ki, təlimlərin təşkilində əsas məqsəd beynəlxalq və xarici siyasət sahəsində çalışan jurnalistlərin peşəkarlığının artırılmasıdır. Media sahəsində müəyyən problemlərin olduğunu diqqətə çatdıran Mərkəz sədri beynəlxalq, o cümlədən təşkilat və səfirliklərlə əlaqələrin daha da gücləndirilməsinin vacibliyini vurğulayıb.

**Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, müharibədən sonrakı reallıqların beynəlxalq ictimaiyyətə çatdırılmasında medianın üzərinə böyük məsuliyyət düşür**. Ə.İsmayılov postmünaqişə dövründə bu mövzuda təlimlərin təşkili mühüm əhəmiyyət kəsb etdiyini və sahə üzrə ixtisaslaşmış jurnalistlərə böyük ehtiyac duyulduğunu deyib. Çıxışlar zamanı bu kimi təlimlərin mütəmadi xarakter daşıyacağı vurğulanıb.

Daha sonra Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Azərbaycanın müharibədən sonrakı dövrdə mövqeyinin beynəlxalq mediaya düzgün çatdırılması dili və terminologiyanın dəyişməsi", Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polkovnik-leytenant Anar Eyvazov "Media nümayəndələrinin azad edilmiş bölgələrə səfəri" və BMTM-nin baş məsləhətçisi Vasif Hüseynov "Xarici mediada Azərbaycan həqiqətlərinin çatdırılmasına dair məqalələrin yazılması" mövzularında təlim keçiblər.

Təlimin ikinci günündə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədovun "Post-münaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması. Təhdidlər və perspektivlər", Xarici İşlər Nazirliyinin Beynəlxalq Təhlükəsizlik İdarəsinin rəisi Yalçın Rəfiyevin "44 günlük Vətən müharibəsi dövründə və ondan sonra beynəlxalq təşkilatlar çərçivəsində aparılan fəaliyyət", Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın "Post-münaqişə dövründə Azərbaycanın xarici siyasətinin prioritetləri" mövzularında təlim baş tutub.

Təlimin üçüncü günü, yəni yanvarın 26-da Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi, Hərbi Nəşriyyat və Hərb Tarixi Muzeyinə press-tur təşkil edilib.

**Sonda jurnalistlərə sertifikatlar təqdim olunub.**

**Sənan İsmayıl**

# Daha ziyarətgahlara din xadimlərini QMİ təyin etməyəcək

## Yaxın 1 il müddətində bu addımın effektini bütün xalq görəcək



"QMİ "qocalmış" bir idarədir və çarlıq zamanından qalma funksiyalarını artıq həyata keçirə bilmir"

**İslam dininə aid ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimlərinin təyin edilməsi səlahiyyəti Qafqaz Müsəlmanları İdarəsindən alına bilər.**

Trend-in məlumatına görə, bununla bağlı məsələ "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb.

Dəyişikliyə əsasən, islam dininə aid ibadət yerlərinə və ziyarətgahlara rəhbərlik edən din xadimlərin təyinatı səlahiyyəti müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (qurum) verilir.

Qanuna dəyişikliklərin Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sabah (bu gün) keçirilən iclasında müzakirə edilməsi nəzərdə tutulur.

**Qanun layihəsində nəzərdə tutulan dəyişikliklə bağlı "Şərq"ə açıqlama verən ilahiyyatçı Tural İrfan bu addımı təqdirəlayiq hal hesab etdiyini bildirib.**

"Çox layiqli və hətta gecikmiş qərardır. Biz dəfələrlə bu barədə təkliflər irəli sürmüşük ki, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) müəyyən səlahiyyətləri məhdudlaşdırılıb Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (DQİDK) verilməlidir. Ola bilər ki, şeyxülislamın şəxsi nüfuzuna və ya başqa bir səbəbə görə bu məsələ indiyə kimi yubanırdı.

QMİ "qocalmış" bir idarədir və çarlıq zamanından qalma funksiyalarını artıq həyata keçirə bilmir. Qeyri-hökumət təşkilatı olduğuna görə də dövlət onların faəliyyətini qanun çərçivəsində tənzimləyə bilmir. Ancaq dövlət komitəsinin səlahiyyətləri daha çoxdur. Eyni zamanda müsəlman ölkələrindəki təcrübə də bunu göstərir. Bu baxımdan qərar təqdirəlayiqdir.

Həmçinin ziyarətgahlarda özbaşınalıq hökm sürürdü. Hərə bir ziyarətgahı əlinə keçirmişdi və öz məqsədləri üçün istifadə edirdi. Müəyyən yerlərdə İcra hakimiyyəti orqanları da onlarla şərik idi və bu yerləri müəssisə kimi istifadə edib, yığılan pulları mənimsəyirdilər. QMİ bəlkə özü də buradan "bəhrələndiyi" üçün buna göz yumurdu. Ümumilikdə belə qüsurlar çox idi.

Məscidlərə imamların təyin olunması səlahiyyətinin dövlət qurumuna keçməsi də çox önəmli və sevindirici bir haldır. Çünki idarə Çar Rusiyası dövründə yaranıb və fəaliyyətini indi də Rusiya və İranın



təsir dairəsində həyata keçirir. Bu səbəbdən məscidlərə imam təyinatında da bir çox qüsurlara yol verirdilər. Xurafatçı, radikal, bəzən də xaricdə din adı altında siyasi təlim keçmiş axundları gətirib təyin edirdilər. Bu da ölkədə məzhəbçilik intriqası, xurafatçılıq yaradırdı və bir çox insanlar buna baxaraq dindən uzaqlaşırdılar".

**İlahiyyatçı həmçinin qeyd edib ki, yaxın 1 il müddətində bu addımın effektini bütün xalq görəcək:**

"DQİDK yarandığı gündən təqdirəlayiq fəaliyyət göstərib. Bu gün də oranın yetişdirdiyi kifayət qədər kadr potensialı var. Oradan İlahiyyat Universitetinin rektoru Ceyhun Məmmədov kimi deputat şəxslər çıxıb. Bu, özünü sübut etmiş bir qurumdur. İndiyə kimi QMİ-dən fərqli olaraq bu komitədən kiminsə rüşvətxorluq və ya başqa bir yanlış hərəkətini etdiyini eşitməmişik. İnanıram ki, Mübariz Qurbanlı bu işlərə nəzarət edəcək və xalq da razı qalacaq".

**Sənan İsmayıl**

### Paşinyanın açıqlaması göstərir ki, sülh prosesi uzanacaq



# İki mesaj...

## İrəvan zaman qazanmağa çalışır

**Ermənistan Baş naziri Nikol Paşinyan yeni ilin ilk mətbuat konfransında müzakirələrə səbəb olacaq açıqlamalar verdi. Sirr deyil ki, konfransın keçirilməsi zərurəti prezident Sarkisyanın istefası fonunda yaranmışdı.**

Lakin erməni baş nazir bundan Qarabağ və sərhəd məsələsi ilə bağlı mövqeyini yeniləmək üçün də istifadə etdi. Paşinyan Azərbaycanla sülh sazişinin əleyhinə olmadığını söyləsə də, əlavə etdi ki, bu saziş formalaşdırılmalı və bunun üçün danışıqlar aparılmalıdır. Baş nazirin açıqlamasında "Dağlıq Qarabağ"ın və Minsk qrupu formatının adının çəkilməməsi diqqət çəkir. Ekspertlərin fikrincə, Nikol Paşinyan bununla iki mesaj verir. İlk növbədə erməni cəmiyyətinə "sülh sazişi" ilə bağlı atacağı addımları açıqlayır. Göstərir ki, İrəvan bu məsələyə müqavimətsiz razılaşmayacaq, danışıqlarda öz şərtlərini də irəli sürəcək. Eyni zamanda Azərbaycan tərəfinin "altı aylıq müddət" mesajına "başlamağa hazırıq" cavabını verir.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, "sülh sazişi" ilə bağlı danışıqlar o deməkdir ki, Bakının tələbləri ilə yanaşı, İrəvanın da istəkləri olacaq. Ekspertə görə, bu, prosesin uzanması riskini artırır:** "Rəsmi İrəvan indiki situasiyada zaman qazanmağa çalışa bilər. Ermənistan Minsk qrupunun proseslərdə mümkün iştirakı üçün şəraitin yetişməsini gözləyir. İrəvan hökuməti ABŞ-Rusiya qarşıdurmasında Ankara-Moskva münasibətlərinin korlanacağına ümid edir və bunu Bakının əlini zəiflədəcəyi fürsəti kimi görür. Nikol da anlayır ki, saziş sərhəd və ərazi bütövlüyünün tanınması deməkdir. Lakin prosesi uzatmaq istəyi sərhəd və regional kommunikasiyaların açılması işində Ermənistanın maraqlarının təmin edilməsinə də hesablana bilər. Paşinyanın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı fikirləri də diqqət çəkir. Baş nazir Madrid prinsiplərində ərazi bütövlüyü prinsipini xatırladır, lakin "öz müqəddəratını təyin etmə" məsələsinə toxunmur. MDB-yə üzv olarkən Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyir. 1996-cı ilin Lissabon sammitində münaqişənin həlli ilə bağlı qəbul edilən üç prinsipi, 1999-cı ildə İstanbul sammitində "Dağlıq Qarabağın" danışıqlardan çıxarılmasını xatırladır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə toxunur. Erməni baş nazir bununla daxili auditoriyaya iki mesaj verir. Birincisi, Azərbaycanın ərazi bütövlüyünü tanımağa məcburdurlar və bunun günahkarı o deyil. İndiyə qədər qəbul edilmiş sənədlər bunu tələb edir. İkincisi, Ermənistan bundan öncə Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. O, ilk belə addım atmayacaq".

"Delimitasiya müqaviləsi imzalanacağı və buna uyğun demarkasiya prosesi başlayacağı təqdirdə, mövqe dəyişiklikləri xəritəyə uyğun aparıla bilər"

A.Nərimanlıya görə, Paşinyanın əsas problem yaratdığı məqam sərhədin delimitasiya və demarkasiyasıdır: "Paşinyan sərhədin delimitasiya və demarkasiyası üzrə ikitərəfli komissiyanın tezliklə yaradılmasını istəyir. Lakin bununla bağlı təkliflərini Rusiya vasitəsilə Azərbaycana çatdırır. Təkliflərin nə olduğu açıqlanmır. Hərçənd, Soçi razılaşmasına görə sərhədlə bağlı komissiya qısa zamanda yaradılmalı idi. Görünür, Ermənistan komissiyanın yaradılmasını öz istəkləri çərçivəsində icra etmək niyyətindədir. Bu təklifin nədən ibarət olduğunu Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan müəyyən qədər açıqlamışdı. İrəvan "güzgü prinsipi"ni təklif edir. Bu, qoşunların əvvəlki mövqelərinə çəkilməsi və delimitasiya-demarkasiya prosesinin bundan sonra başlanması deməkdir. Azərbaycan may ayından etibarən Ermənistanın işğal dövründə irəli çəkdiyi dövlət sərhədini praktiki olaraq bərpa etməyə başlayıb. Delimitasiya müqaviləsi imzalanacağı və buna uyğun demarkasiya prosesi başlayacağı təqdirdə, mövqe dəyişiklikləri xəritəyə uyğun aparıla bilər. Paşinyan bunun asan olmadığını anlayır. Təklifin Rusiya vasitəsilə göndərilməsi Moskvanın bu məsələdə ən azı neytral mövqeyi tutmasından xəbər verir".



**İsmayıl**

# Deputatların təklifinə baxılacaq

## Azərbaycanda pensiyaya çıxma şərtləri yumşaldıla bilər



**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev pensiya sahəsində nəzərdə tutulan islahatlar və bu istiqamətdə aparılacaq dinləmə və müzakirələrə aydınlıq gətirib.**

Parlamentin komitə sədri APA-ya açıqlamasında deyib ki, ”Əmək pensiyaları haqqında” qanun 2006-cı ildə qəbul ediləndən sonra bu sahədə islahatlar davam edir.

**M. Quliyev qeyd edib ki, islahatların müəyyən müsbət nəticələri olsa da, bu sahədə müəyyən problemlər, çətinliklər hələ də qalmaqdadır:** ”Ona görə də Əmək və sosial siyasət komitəsinin yaz sessiyası üçün iş planına bununla bağlı dinləmə daxil etdik. Geniş dinləməni aprel və ya may aylarında keçirməyi planlaşdırırıq. Bu dinləmədə bir çox suallara aydınlıq gətiriləcək”.

*Parlamentin komitə sədri nəzərə çatdırıb ki, deputatlar tərəfindən vəfat edən şəxsin pensiya kapitalı ilə bağlı məsələ də qaldırılıb:* ”Bu məsələ komitənin təşkil edəcəyi dinləmədə müzakirə ediləcək. Müxtəlif ölkələrin təcrübələri var. Bəzi ölkələrdə pensiya kapitalı vətəndaşın öz arzusuyla onun özünə verilir, bəzi ölkələrdə icbari sosial sığorta ilə yanaşı könüllü sosial sığorta fondları ilə müqavilə əsasında kapitalın xərclənməsi şərtləri müəyyənləşir. Azərbaycanda isə pensiya hüququ olan şəxs vəfat edirsə, onun pensiya hüququ olan və ya əlilliyə görə pensiya almaq hüququ olan ailə üzvünə onun pensiyası verilə bilər. Ailədə əlilliyi olan övladı, ya əlilliyi olan həyat yoldaşı, ya da pensiya almaq hüququ olan həyat yoldaşı vəfat edən şəxsin pensiyasını ala bilər. Pensiya kapitalının hamısının şəxsin ailə üzvlərin tərəfindən götürülməsi isə bizim qanunvericiliyimizdə yoxdur”.

**M. Quliyev vəfat edən şəxsin ailə üzvlərindən pensiya almaq hüququ olan şəxs olmadıqda həmin pensiya kapitalının taleyinin necə olmasına da aydınlıq gətirib:**

”Pensiya kapitalı fondu formalaşır. İşləyən şəxslərin əməkhaqqından ayrılan sığorta haqları onların özlərinə çatmır. Başqa sözlə, hazırda bizim əməkhaqqımızdan çıxılan sığorta haqları indi pensiya alan şəxslərə çatır. Biz pensiyaya çıxanda isə o dövrdə işləyənlərin əməkhaqqından ayrılan sığorta haqları ilə pensiya alacağıq. Bu, çox mürəkkəb mexanizmdir”.

**Komitə sədri bütün bunlara baxmayaraq, deputatların təklifinə baxılacağını da əlavə edib:** ”Öncədə də qeyd etdiyim kimi, hazırda bizim qanunvericiliyə görə vəfat edən şəxsin pensiya kapitalı onun ailə üzvlərindən pensiya hüququ olanlara ödənilir. Yəni bu pensiya kapitalından pensiya almaq hüququ olan şəxslər istifadə edə bilər. Bununla bağlı qanunvericiliyə dəyişiklik edilib-edilməyəcəyini isə indidən demək çox çətindir, hər bir məsələnin mənfi, müsbət, real olan və real olmayan tərəfi var. Ümumiyyətlə, çalışırıq ki, pensiyalarla bağlı vətəndaşları, deputatları narahat edən məsələlərin hamısını araşdıraq və bu islahatların daha da uğurla olması üçün ”Əmək pensiyaları haqqında” qanuna lazımi dəyişiklikləri edək. Məsələn, vətəndaşlarımızın pensiyaya çıxma şərtlərinin yumşaldılması üçün qanunvericiliyə yeni dəyişikliklər edilməsi istiqamətində də çalışırıq”.

Qeyd edək ki, hazırda qüvvədə olan Əmək pensiyaları haqqında qanuna əsasən, 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var.

Qanunda kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

# Qərbin dişsiz siyasəti...

## NATO Ukraynanı silahlandırsa da sanksiyalarla işini bitmiş hesab edəcək



### “Baş verənlər yaxşı qurulmuş senaridir və dünyanın bölünməsi, yeni mərhələnin başlanğıcıdır”

**NATO-nun baş katibi Yens Stoltenberq dünyanın diqqət mərkəzində olan məsələyə aydınlıq gətirib. Baş katib vurğulayıb ki, onun rəhbərlik etdiyi alyans Ukraynaya qoşun yeritməyəcək. Qurum rəhbəri Rusiya ilə silahlara nəzarət, hərbi əməliyyatların şəffaflığı və digər təhlükəsizlik məsələlərini müzakirə etməyə hazır olduqlarını dilə gətirib.**

Stoltenberq həmçinin bildirib ki, NATO ABŞ-la əlaqələndirilmiş şəkildə bu həftə Rusiyanın təhlükəsizliklə bağlı təkliflərinə yazılı cavab göndərəcək: ”Biz NATO-da təkliflər üzərində işi yekunlaşdırırıq. Bu həftənin sonunda yazılı sənədi göndərəcəyik. Biz bunu ABŞ-la paralel olaraq edəcəyik”. Hərbi alyansın baş katibi əlavə edib ki, Rusiyaya fundamental prinsiplərlə bağlı güzəşt edilməyəcək. Rusiya XİN başçısı Sergey Lavrov isə Qərbi növbəti dəfə ittiham edib. Lavrova görə, ABŞ və Qərb digər ölkələrin maraqları ilə hesablaşmadan özləri üçün təktərəfli üstünlük təmin etməyə çalışırlar. XİN rəhbəri Qərb ölkələrinin Ukraynanı Rusiyaya qarşı aqressiv addımlar atmağa həvəsləndirdiyini də əlavə edib: ”Rusiya təhlükəsizlik təminatları ilə bağlı verdiyi təkliflərin fasiləsiz diskussiyalarda qalmasına imkan verməyəcək”. Lavrov Moskvanın maraqlarının istənilən vəziyyətdə qorunacağını əlavə edib. Bu arada ABŞ Dövlət katibi Entoni Blinkenlə Böyük Britaniya Xarici işlər naziri Liz Trass arasında telefon danışığı baş tutub. Tərəflər Rusiyanı Ukrayna və onun ətrafında hərbi təcavüzdən çəkindirmək üçün son tədbirlərin nəticələrini müzakirə ediblər.

**Politoloq Zaur Məmmədov ”Şərq”ə açıqlamasında bildirib ki, NATO baş katibi tərəfindən səsləndirilən bəyanatlar göstərir ki, Alyans bu ölkəni silahlandırmağa davam etsə də, müharibə başlayacağı təqdirdə sanksiyalarla öz funksiyasını bitmiş hesab edəcək.** Ekspertin sözlərinə görə, ABŞ Prezidenti Co Baydenin dişsiz siyasəti bütün MDB məkanını yüz il əvvələ sürükləyə bilər: ”Subyektiv fikrim odur ki, baş verənlər yaxşı qurulmuş senaridir və dünyanın bölünməsi, yeni mərhələnin başlanğıcıdır. Rusiya Belarusa 98-ci hava-desant diviziyasının 217-ci qvardiya paraşüt-desant polkunu göndərib. Bu qruplaşma yanvarın əvvəllərində KTMT qüvvələri tərkibində Qazaxıstana yeridilmişdi. İddialara görə, Ukrayna ərazisinə istənilən irimiqyaslı hücumda hava desant qoşunları həlledici rol oynayacaq. Onlar arxa cəbhədə strateji obyektləri ələ keçirmək üçün desant əməliyyatlarında iştirak edə bilərlər. Yaxud zərbə piyada qüvvələri qismində hərəkət etmələri mümkündür. Rusiya bu taktikanı Ukraynaya qarşı 2014-cü ildə tətbiq edib”.

**İsmayıl Qocayev**

# Özümüz olaq...

## Niyə “Səs Azərbaycan”da milli musiqimiz ingilisdilli musiqiyə yenilməlidir?

**Məlahət Rzayeva**




**Belə qənaət yarana bilər ki, ”Səs Azərbaycan”ı, deyəsən, Con de Mol (”Səs”in yaradıcısı, hollandiyalı mediamaqnat) şəxsən izləyir. Gözü Azərbaycanda keçirilən ”Səs” yarışmasındadı; görüm kim nə oxuyur, necə oxuyur?.. ”Səs Azərbaycan”ın münsifləri də məhz bunu bildiklərindən dəridən-qabıqdan çıxırlar, təki komanda üzvlərini bu hollanda bəyəndirsinlər. Və buna görə də yarışmanın repertuarını ingilis mahnıları ilə doldururlar.**

Söhbətin nədən gedəcəyini bildiniz artıq. ”Səs Azərbaycan”da ingilisdilli mahnıların çoxluq təşkil etməsi şəxsən məni izləyici kimi qane etmir. Bəyənmirəm, xoşuma gəlmir. Yarışmanın adı ”Səs Azərbaycan”dır! ”Səs İngiltərə”, ”Səs Niderland”... ”O ses Türkiye” də deyil heç. Amma nə görürük? Səhnəyə çıxan ingilis mahnısı oxuyur. Gah da Türkiyə bəstəkarlarının, sənətçilərinin məşhur mahnılarını ifa edirlər. Məşhur ifadəsini bilərəkdən yazdım. Bəli, ifa edilənlər dünyada məşhurdur, sevilən mahnılardır. İstər ingilisdilli olsun, istər Türkiyə türkcəsində. Amma Azərbaycan musiqisi deyil. Demirəm, ”Səs”də Azərbaycan mahnıları ifa edilmir. Edilir. Həm də ustalıqla. Azdır amma. İngilisdilli mahnılarla müqayisə edəndə, az görünür. Xarici mahnılar ağır gəlir. ”Səs” yarışmasını mütəmadi izləmək imkanım olmayıb. Görmədən seçimlərin bəzilərinə baxırdım. Onda da seçimə gələnlərin əksəriyyəti ya ingilis dilində ifa edirdi, bəzisi ispan, latın amerikan mahnısı oxuyurdu. Yenə təkrar edirəm, Azərbaycan bəstəkarlarının mahnıları ifa edilir. Lakin hər 2 iştirakçıdan biri ingilis dilində oxuyanda, nisbət dəyişir artıq. Məhz Azərbaycan musiqisinin əleyhinə dəyişir. İngilis musiqisi dominantlaşır. Şəxsən bu fikirdəyəm ki, xüsusilə seçim turlarında yalnız Azərbaycan musiqisi ilə səhnəyə çıxılmalıdır. İştirakçılar - ”Səs” yarışmasına iddiaçılar məhz Azərbaycan - milli musiqi ilə səs imkanlarını nümayiş etdirməlidir. Nə görüblər, ingilis mahnılarında? Yəni dünyada Azərbaycan musiqisini üstələyə biləcək musiqi varmı? Bütün çalarları, rəngarəngliyi, genişliyi, janrları... hər bir çeşidi ilə. Muğam bizdə, xalq musiqisi bizdə, estradası, kamera musiqisi, cazı, operası, ”müzik-holl”u... Nə deyirsiz, nə istəyirsiniz var! Özündə olmayanı başqa ölkədən gətirməyə çalışarsan. Bir şey ki səndə var, niyə özgəsinə ”göz qoyasan”?! Nə olsun ki, bu mahnılar dünyaca məşhurdur və onları dünya ulduzları ifa edib. Azərbaycan iştirakçısı, ”Mən Azərbaycanın səsi olacam” iddiası ilə yarışmaya qatılan, əvvəlcə buyursun səsini ana dilində ifa ilə nümayiş etdirsin. Xarici mahnı oxumağa vaxtı olar, hər halda. Ömrü də yetər, inşəllah. Sadəcə, ingilisdilli mahnılara bu qədər bağlılığa səbəb tapa bilmirəm. Seçimlər zamanı bir iddiaçı (adı yadımda deyil - M.R.) ingilis dilində mahnı ifa etdi, münsiflərdən kimsə o səsə dönmədi. İfa bitdikdən sonra Brilliant Dadaşova iddiaçıdan başqa bir mahnı ifa etməsini xahiş etdi, o da Azərbaycan dilində mahnı oxudu. Brilliant xanım ”kaş sən bu mahnını ifa edəydin. Səsin necə açıldı...” dedi. Deməli, insan təbii olanda daha çox seçilir və bəyənilir. Azərbaycan musiqisi ana dilimiz, ana südümüz kimi halaldır. Səs imkanlarına sahib iştirakçı ana dilində ifa etməklə münsiflərin də rəğbətini qazanar, tamaşıçıların da. Amma yox, səhnəyə çıxan, mikrofonu ələ keçirən ingilis mahnısı oxuyur. Bir az səbr edib düşündüm, bəlkə gənclərdi, özlərini bu cür nümayiş etdirirlər. Sonrasını gözləyək. Sonrası lap betər gəldi. Statistika aparmamışam. Buna nə vaxtım, nə həvəsim olub. Münsiflər özü bilir, nə qədər milli mahnı ifa edilib, nə qədər əcnəbi. Səsə (bəlkə daha çox ingilisdilli mahnılara - M.R.) dönən də onlar idi, komanda üzvləri ilə işləyən də. İzləyə bildiyim qədər, məsələn, komandada 4 iştirakçı qalan mərhələdə repertuarın 2-nin 2-yə bölündüyünü gördüm. 2 Azərbaycan, 2 inigilis mahnısı ifa edilməyə başlandı. ”Balanslaşdırılmış siyasət”ə keçdilər. Nəzərə çarpan bu idi ki, Brilliant xanım digər münsiflərdən bir az artıq Azərbaycan mahnılarına üstünlük verir, Eldar Qasımov, Murad Arif ingilisə ”stafka” edir, Tünzalə Ağayeva da Azərbaycan-ingilis arasında ”vurnuxur”. Hətta 2-nin 2-yə də qəbuledilməzdir. ”Səs Azərbaycan”dı ee... yarışmanın adı! Hardandı bu kelt, anqlo-sakson sevgisi?! Münsiflərə ustad deyirlər. Olsun. Həmin o ustadlar milli musiqinin əcnəbi musiqisinə yenilməyini rahatlıqla izləyir və özləri də ədalətsiz hakim rolunda çıxış edirlər. Nəticədə ”Səs Azərbaycan”da milli musiqimiz boynu bükük, yetim uşağa oxşayır. Tünzalə Ağayeva tez-tez belə ifadə işlədir: ”bu, onu ”yeyər”, ”filankəs filankəsi ”yeyəcək”. Birincisi, xalq artistinə yaraşmayan ifadədi. İkincisi də, ”Səs” yarışmasında Azərbaycan musiqisini əcnəbi musiqisinə yedirmisiniz artıq. Yem etmisiniz. Hər dəfə hansısa komandanın üzvü ingilis mahnısı ifa edəndə, ustadlar da mahnını astadan təkrarlayır və bununla da ”mən bu mahnını bilirəm”, deyə, əyləşdikləri kreslodanca, bəzən də yüyürərək səhnəyə çıxıb ifaçıya şövqlə yoldaşlıq edirlər. Məqsədləri, yəqin ”Avroviziya”dı. Kimin komandasının üzvü ”Avroviziya” iştirakçısı olacaq. Bunun mübarizəsi gedir. Belədirsə, yarışmanı ”Avroviziya” seçim turları” elan edin, izləyici də işini bilsin. Bir də ki, lap tutalım, ”Avroviziya” yarışmasına namizəd axtarırsınız, iştirakçı yetişdirmək planınız var. Niyə də Azərbaycan musiqisi ilə olmasın?! Bir halda ki, musiqi sərhəd tanımır, hansı dildə ifa edilməsindən asılı olmayaraq istedad, səs imkanları, bacarıq həmən aşkara çıxır, ingilis sevgisindən əl çəkin o zaman. Bir də ki, ”Avroviziya” bizim müəyyən təbəqə üçün aktuallığını hələ də qoruyur. Avropa çoxdan bezib bu yarışmadan. Xüsusilə də son illərin pandemiya və iqtisadi çöküş şəraitində, inanmıram hansısa Avropa ölkəsi ”Avroviziya”ya ev sahibliyi etməyə can atsın. Bunu yalnız Ermənistan kimi görməmiş, düşük ölkələr arzulaya bilər. Qədim əyyamlara baş vurmaqda qınayanlar olacaq, bəlkə də. Amma deməliyəm. Nə Rəşid Behbudov, nə də Zeynəb Xanlarova dünyanı əcnəbi musiqiylə deyil, məhz Azərbaycan musiqisi ilə fəth etdilər. Heyran qoydular. Repertuarlarına səfər etdikləri ölkənin məşhur bir mahnısını daxil edirdilər. Xalqa hörmət əlaməti olaraq. Eləcə də Alim Qasımov. Səfər etdiyi saysız-hesabsız ölkələrdə muğamı ingilis dilində ifa etmir. Azərbaycan dilində oxuyur! ”Səs Azərbaycan” layihəsinin münsifləri özlərini kimə nümayiş etdirir? Əcnəbi mahnılarla dünyanı heyrətləndirə biləcəklərini düşünürlərsə, inandırıcı deyil. Bu mahnıları ingilislər, ispanlar, fransızlar eşidib artıq. Yenilik lazımdır onlara. Çalışın, eşitmədiklərini təqdim edin. Əgər əcnəbi mahnılarla daha üstün performans sərgiləmək imkanları olduğunu əsas gətirirlərsə, heç də belə deyil. Səhnəyə rəqs qrupu çıxarmaqdan savayı guya qeyri-adi hansı göstəri nümayiş edilib ki? Azərbaycan mahnılarına da həmin rəqqaslarla istənilən rəqs nömrəsi tətbiq etmək mümkündür. Nümunələr də oldu. Həm də Azərbaycan musiqisi daxilən o qədər zəngindir ki, rəqqas, səhnəcik olmasa da ürəyə, hisslərə hakim kəsilir. Anqlo-sakson musiqisinə ”bağlılığın” səbəbi ”full” görünmək istəyindən doğur bəlkə də. Yəni biz belə müasirik, dünya musiqisini bilirik, ingilis mahnıları bizim üçün bir udum sudur və sair... belə ”krutoy”uq. Birinin saçını ”Anjela Devis” edib, Tina Työrnerə oxşadırlar, birini Conatan Roya... Oxşasınlar. Lap onlardan qat-qat üstün olsunlar. Səs imkanlarına baxanda hətta üstündürlər ki, əskik deyillər. Amma əvvəlcə özləri olsunlar. Mürəkkəb və möcüzəli milli musiqini ram etsinlər, sonra. Finalda bilmirəm nə olacaq. Milli bəstəkarlarımızdan 1-2 mahnı salacaqlar repertuara. İstənilən halda ”Səs Azərbaycan”ın konkret 2021-22 buraxılışı əcnəbi musiqinin dominantlığı ilə yadda qalacaq.

> “Anqlo-sakson musiqisinə “bağlılığın” səbəbi “full” görünmək istəyindən doğur bəlkə də. Yəni biz belə müasirik, dünya musiqisini bilirik, ingilis mahnıları bizim üçün bir udum sudur və sair... belə “krutoy”uq”



# "Töhmət dərhal ləğv olunmalıdır"

## Fazil Mustafa: "Təhsil naziri şəxsən o müəllimdən üzr istəməlidir"



### *"Şagirdləri bu şəkildə müəllimlərin üzərinə qaldırmaq olmaz"*

**165 nömrəli orta məktəbdə şagirdlərin tədris prosesinə uyğun olmayan davranışı ictimaiyyətdə ciddi rezonans doğurub. Əksəriyyət şagirdlərin dərsi pozan saymazyana hərəkətlərini sərt şəkildə qınayıblar. Məsələ ictimailəşəndən sonra videogörüntü ilə bağlı məktəb rəhbərliyi tərəfindən araşdırma aparılıb. Nəticədə dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət verilib.**

Üstəlik, məktəbin direktor müavinləri ilə bağlı tənbeh tədbirləri görülməsi üçün təqdimat verilib. Qeyd olunub ki, hüquq-mühafizə orqanlarının əməkdaşları valideyn və şagirdlərin izahatlarını alıblar. Üzrxahlıq edən şagirdlər bir daha belə hallara yol verməyəcəklərini bildiriblər. Şagirdlər müvafiq qaydada profilaktik tədbirlər görülməsi üçün qeydiyyata götürülüb. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən isə bildirilib ki, ümumi təhsil müəssisələrində müəllim-şagird münasibətlərinin tənzimlənməsi məqsədilə müvafiq tədbirlər həyata keçirilir.



**Millət vəkili Fazil Mustafa məlum olaydan sonra müəllimə töhmət verilməsini tənqid edib. Deputat sosial şəbəkə hesabında məsələyə sərt reaksiya verib:** "Bu nə cəsarətsizlik, bu nə qorxaqlıq? Müəllimi belə aşağılamağa, töhmətləməyə kim haqq verib sizlərə? Sosial şəbəkədə yüz cür şey paylaşıla bilər. Şagird tərbiyəli davranmırsa, müəllim islahəmək müəssisəsinin rəhbəri deyil ki? Bilmirsiz ki, ayağını qaldırıb partanın üzərinə qoyan, video çəkdirən şagirdi müəllim niyə görməyib? Müəllim normal dərs keçmək əvəzinə səhifələrlə dolu formal sənədləri doldurmalı olur. İcmal, gündəlik, formativ jurnal və başqa tələb olunan mənasız yazılar müəllimi dərsə diqqət yetirməkdən məhrum edir. Nə dərsə hazırlaşmağa vaxtı olur, nə də sinifdə hansısa uşağa qəlbə dəyən söz deməyə. Dərhal tökülüb gəlirlər ki, uşağın üstünə çığırmısan. Hələ sertifikasiyaya hazırlaşmağı demirəm".

**Parlament üzvü 45-50 yaşdan yuxarı bütün müəllimlərə aid sertifikat tələbinin ləğv edilməsini təklif edib:** "Onların 15-20 illik təcrübəsi şagirdə bilik verməyə kifayət edər. Bu qədər gərginliyin altında qalan müəllimə şagirdlərin tərbiyəsiz hərəkətinə görə hələ bir töhmət də verirlər. Mən həmin müəllimi tanımıram. Məhz bu məsələyə görə onun hüquqlarını qorumağa hazıram. Düşünürəm ki, vurulan mənəvi zərbəyə görə birbaşa təhsil naziri şəxsən həmin müəllimdən üzr istəməli və töhmət dərhal ləğv olunmalıdır. Müəllimi belə məsələlərə görə günahkar çıxarmanın tam əleyhinəyəm. Azərbaycanın dəyərli müəllimlərini qorumaq, onlara mənəvi dəstək vermək lazımdır. Şagirdləri bu şəkildə müəllimlərin üzərinə qaldırmaq olmaz. Əlbəttə, pis niyyətli, qaba xarakterli, savadsız müəllimlər də ola bilər. Bu, konkret faktlar və konkret davranışlar üzrə dəyərləndirilməlidir. Həmin video-görüntüdəki şagirdlərin hərəkətinə görə müəllimin cəzalandırılması tamamilə yanlışdır".

**İsmayıl**

---

**Yanvarın 25-də İranın Yol və şəhərsalma naziri Rüstəm Qasemi Azərbaycana səfər etdi. Səfər çərçivəsində bir sıra vacib görüşlər keçirildi. Azərbaycan və İran arasında enerji, sənaye, tranzit, kənd təsərrüfatı və digər sahələrdəki proyektlər haqda müzakirələr aparıldı. İranla Azərbaycan arasında Astaraçay üzərində yeni avtomobil körpüsünün təməli qoyuldu.**



# Körpü salındı...

## İstifadə olunmamış potensial hələ çox genişdir

Körpünün bu ilin sonuna kimi istifadəyə verilməsi nəzərdə tutulur. Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti də İranda səfərdədir. Müdafiə naziri ötən gün İran Prezidenti İbrahim Rəisi tərəfindən də qəbul edilib. Görüş zamanı Prezident İbrahim Rəisi xalqlarımızın əsrlər boyu mehriban qonşuluq şəraitində yaşadığını, Azərbaycan-İran ikitərəfli münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Ölkələrimiz arasında əlaqələrin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin önəmini vurğulayan İran rəhbəri dostluq və qardaşlıq münasibətlərinin qarşıdakı illərdə də uğurla inkişaf edəcəyinə əminliyini ifadə edib.

**İran-Azərbaycan əlaqələri barədə danışan millət vəkili Azər Badamov deyib ki, Azərbaycan bütün qonşu ölkələrlə səmimi qonşuluq münasibətlərində olmaq və əməkdaşlıq platformalarını genişləndirmək niyyətindədir.** Deputatın sözlərinə görə, İran Azərbaycanın yaxın qonşusu, xüsusilə, mədəni, tarixi və ictimai bağları ilə yaxınlığı olan bir ölkədir: "Keçən ilin noyabrında Prezident İlham Əliyevin İran rəhbəri İbrahim Rəisi ilə görüşü münasibətlərin inkişafına müsbət impuls verib. Aparılan danışıqlar ölkələrimiz arasında əlaqələrin inkişafında yeni səhifə açıb. Azərbaycanla İran arasında əməkdaşlıq etmək üçün istifadə olunmamış potensial çox genişdir. Rüstəm Qaseminin səfəri çərçivəsində Astaraçay üzərində yeni avtomobil körpüsünün və piyada keçidinin tikilməsi ilə bağlı sənəd imzalandı. Azərbaycanın İranla yükdaşımalarının həcmi sürətlə artmaqdadır Astaraçay körpüsünün yenidən tikilməsi ölkələrimizin tranzit imkanlarını genişləndirəcək. O cümlədən, İran nümayəndə heyəti Zəngilan rayonuna səfəri çərçivəsində Zəngəzur dəhlizinin tərkib hissəsi olaraq inşa etdiyimiz nəqliyyat layihələri ilə tanış oldu. İran yeni reallığa uyğun yaratdığımız 3+3 formatında iştirakda maraqlıdır. Zəngəzur dəhlizi bu istiqamətdə region ölkələrinin eyni platformada əməkdaşlıq etmək imkanlarını daha da genişləndirəcək. Həmçinin, işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işlərində, investisiya layihələrinin icrasında İran şirkətləri də iştirak etməkdə maraqlıdır".

### *İran-Azərbaycan əlaqələrində yeni mərhələ başlayır*

**Millət vəkili Sahib Alıyev də vurğulayıb ki, Azərbaycanın müdafiə nazirinin İrana, İranın yol və şəhərsalma nazirinin isə Qarabağ üzərindən Azərbaycana səfəri Prezident İlham Əliyevin də vurğuladığı kimi ölkələrimiz arasında yeni səhifənin açılmasından xəbər verir:** "Prezidentlərin Aşqabaddakı görüşlərindən sonra İranla əlaqələrin inkişafını görməmək mümkün deyil. Münasibətlərin gələcəkdə necə olacağı ilk növbədə rəsmi Tehranın atacağı addımlara bağlıdır. İranla bir-birinin daxili işlərinə qarışmadan, qarşılıqlı faydaya dayanan mehriban qonşuluq siyasəti yeritmək bizim istəyimizdir və bunu heç vaxt gizlətməmişik".

**İsmayıl**

---



# Antitürk və müharibə ovqatı zəifləyir

## Türkiyə ilə münasibətlərin qurulması erməni cəmiyyətində indi əsas tələb kimi səslənir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Erməni Fondları İttifaqının sədri Bedros Şirinoğlunu qəbul edib. Mətbuata qapalı keçirilən görüş təxminən 45 dəqiqə davam edib. Təfərrüatlarla bağlı açıqlama verilməsə də, müzakirələrin Türkiyə-Ermənistan münasibətləri ilə bağlı olduğu vurğulanıb. Son günlər Türkiyə mediasında İrəvan-Ankara arasındakı yeni münasibətlərlə bağlı ardıcıl məqalələr dərc edilir.**

Ümumiyyətlə, hər iki ölkənin diplomatik mənbələri baş verənlərlə bağlı qiymətləndirmələr aparırlar. Türkiyə ilə Ermənistan arasında keçiriləcək görüş üçün məkanın Ankara və İrəvan olmasını istədiklərini vurğulayırlar. Görüş üçün başqa ölkəyə ehtiyac olmadığını qeyd edirlər. Ermənistan və Türkiyə arasında normallaşma prosesində xüsusi nümayəndələrin ilk görüşü yanvarın 14-də Moskvada baş tutsa da, təmaslar barədə rəsmi İrəvanda müxtəlif fikirlər səslənməkdədir. Ermənistan iqtidarı və ümumilikdə böyük biznes nümayəndələri Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq istəklərini açıq şəkildə dilə gətirirlər. Bununla belə, fərqli fikirləşənlər də var. Məsələn, tarix elmləri doktoru Hayk Demoyan hesab edir ki, münasibətlər yalnız ticarətlə məhdudlaşmır və bu danışıqlardan Türkiyə öz maraqları üçün istifadə edəcək. Demoyana görə, danışıqların növbəti mərhələsində yeni şərtlərin ortaya çıxması perspektivləri var. Lakin bu perspektivlər arasında ümidverici detallar azdır: "Türkiyə ilə münasibətlərin koordinasiyası Ermənistanın vəziyyətini daha da pisləşdirir. Ermənistan və Türkiyə Xarici işlər nazirliklərinin xüsusi nümayəndələrinin ilk görüşünün yekunlarına dair bəyanatlarının eyni məzmunlu olması bunu sübut edir". Ermənistan Xarici İşlər Nazirliyinin məlumatına görə, xüsusi nümayəndələrin növbəti görüşü fevralın ortalarında İstanbulda baş tuta bilər. Ekspertlərə görə, Ermənistan və Türkiyə arasında gələcək diplomatik danışıqlar kontekstində risklər var. Birincisi, Ermənistan və Azərbaycan arasında gərginlik qaldığı üçün danışıqlar özlüyündə çox həssasdır. Ermənistan qüvvələri tərəfindən sərhəddə təxribatlar baş verir, dinc sakinlərin yaralanması halları davam edir. İkinci risk Türkiyədə yaxınlaşan seçkilərlə əlaqədardır ki, bu da normallaşma perspektivlərini ölkənin daxili siyasi vəziyyətindən asılı hala salır. Bununla belə mürəkkəb perspektivlərə baxmayaraq, nikbinlik də mövcuddur.

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycan ictimaiyyəti Türkiyə ilə münasibətlərin bərpa olunması adına atılan istənilən addımı dəstəkləyir. Partiya təmsilçisi vurğulayıb ki, Ermənistanla bağlı addımların müəyyən dərəcədə yumşalması vacibdir:** "Biz qalib dövlətik. Qalib dövlət üçün bu cür addımların atılması normal qəbul olunmalıdır. İndiki halda ermənilər ictimai rəyi hazırlamağa daha çox üstünlük verəcəklər. Ermənilər azərbaycanlıların Şuşada, Qarabağda, Kəlbəcərdə olmasını da istəmirdilər. Amma artıq bu kimi istəklər öz əhəmiyyətini itirib.

### *"Baş nazir Nikol Paşinyanın irəli sürdüyü "savaşmaq yerinə əməkdaşlıq" siyasətinin dəstəklənməsi Rusiyanın hərbi intriqalarının önlənməsi baxımından çox önəmlidir"*

Çünki ermənilərin istəkləri əsas deyil. Burada onların məcbur olduğu davranışdan söhbət gedə bilər. Onlar da məcburdurlar ki, bu kimi məsələlərdə Azərbaycanın maraqlarını nəzərə alsınlar. Əks halda Ermənistana daha böyük zərbə dəyəcək. Bunu da ermənilər başa düşürlər. Türkiyə ilə kommunikasiya əlaqələrinin və iqtisadi münasibətlərin qurulması Ermənistan cəmiyyətindəki antitürk ovqatını və müharibə aqressiyasını zəiflədəcək. Öz həyat şərtlərini təmin etmək istəyən sadə ermənilərin Türkiyə ilə əlaqələri ənənəvi stereotipləri zəiflədib müharibə təbliğatı aparanların sosial bazasını daraldacaq. Baş nazir Nikol Paşinyanın irəli sürdüyü "savaşmaq yerinə əməkdaşlıq" siyasətinin dəstəklənməsi Rusiyanın hərbi intriqalarının önlənməsi baxımından çox önəmlidir. Bu, birmənalı şəkildə Azərbaycanın da maraqlarına uyğundur".

**S.Əsədliyə görə, ermənilər ərazi iddialarından imtina etməzsə, o zaman nə müqavilə, nə də sülh olar:** "Ermənistan mütləq bu iddialardan imtina etməlidir ki, Azərbaycanla sülh sazişi imzalansın. Əks təqdirdə Ermənistan yenidən böyük problemlər yaşamalı olacaq. Türkiyə ilə münasibətlərin qorunması xalqın istəyi, tələbi olaraq Ermənistan siyasətində bir faktora çevriləcək. Bu da Azərbaycanın maraqlarına tam uyğundur. Türkiyə Ermənistana daha səmərəli təzyiq etmək imkanı qazanacaq".

**İsmayıl Qocayev**

---

# Sülh müqaviləsi mütləqdir

## Əks təqdirdə "Altılıq platforması" nəticəsiz qalacaq

**Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov "3+3" formatından danışıb. Onun sözlərinə görə, Rusiya hesab edir ki, bu platforma regionda iqtisadi əlaqələrin və etimadın inkişaf etdirilməsinə töhfə verəcək. Səfir ötən il çox şey vəd edən "3+3" formatının işə salındığını xatırladıb. Onun sözlərinə görə, burada əsas maraq regionda vəziyyəti sabitləşdirmək və kommunikasiya əlaqələrini bərpa etməkdir.**

O bildirib ki, "3+3" formatında iştirak üçün qapı daim Gürcüstanın üzünə açıqdır".

M.Boçarnikov bu format çərçivəsində növbəti görüşün harada keçiriləcəyi ilə bağlı məlumata malik olmadığını söyləyib.

Xatırladaq ki, "3+3" formatında (Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya və İran) regional əməkdaşlıq platformasının yaradılması təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. Ötən il dekabrın 10-da Moskvada "3+3" formatı çərçivəsində ilk iclas keçirilib. İclas Rusiyanı XİN rəhbərinin müavini Andrey Rudenko, Azərbaycan XİN başçısının müavini Xələf Xələfov, Türkiyəni xarici işlər nazirinin müavini Sədat Önal, Ermənistanın xarici işlər nazirinin müavini Vahe Gevorkyan və İranın Xarici İşlər Nazirliyinin Avrasiya üzrə Baş direktoru Əlirza Həqiqiyanın həmsədrliyi ilə keçirilib. Gürcüstan görüşdə iştirakdan imtina edib.



**Boçarnikovun bəyanatını "Şərq"ə şərh edən Ağ Partiya sədrinin müavini, siyasi şərhçi Əhəd Məmmədli bildirib ki, bu format "Altılıq platforması"nda yer alacaq ölkələrin problemləri öz aralarında həll etmələrinə şərait yaradacaq:**

"3+3" formatının uğurlu olması həmin ölkələrdən asılı olacaq. Əgər onlar məsələyə sülh, sabitlik, əmin-amanlıq mövqeyindən yanaşsalar, əməkdaşlıq müsbətə doğru dəyişəcək. Formatın fəaliyyətinə problem yaradan ölkə Ermənistandır. Regionda sabitliyin əldə edilməsi üçün İrəvan Azərbaycana və Türkiyəyə qarşı təxribatçı mövqeyinə son qoymalıdır. Son dönəmlər Ermənistan rəsmilərindən müsbət fikirlər səsləndirdiyini müşahidə edirik. Paşinyan son çıxışında Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı ərazi iddiasının olmadığını bildirib. Ermənistan hökuməti dilə gətirdiyi fikirləri hərəkətlərində də göstərsə, münasibətlərdə dəyişiklik görə bilərik.

Türkiyə, Azərbaycan, Ermənistan, Rusiya, Gürcüstan, İran öz aralarında olan məsələləri həll etmək gücündədirlər. Əgər formata ciddi yanaşılmasa, kənar qüvvələrin müdaxiləsi ola bilər. Onlar da öz maraqlarını güdəcəklər.

Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb sülh müqaviləsi imzaladıqdan sonra "3+3" formatının ciddi nəticələrini görəcəyik".

**Xanlar ƏLİBƏY**

---

# Gürcüstan da Rusiyanın "maraqlar zonası"na daxildir

## Keçmiş prezident Saakaşvilinin analizi reallığı əks etdirir




**Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili son zamanlar Ukrayna ətrafında yaşanan böhrana münasibət bildirib. Sabiq prezident Rusiyanın Ukrayna ilə yanaşı Gürcüstana da hücum edəcəyi ehtimalından danışıb. Onun sözlərinə görə, Rusiyanın artıq belə bir planı var:**

"Məlumata görə, Rusiya Ukraynaya qarşı genişmiqyaslı plan həyata keçirərsə, həmin günlərdə Anakliyanı (Gürcüstanın dənizkənarı ərazisini -red) tutmaq və Sameqrelo-Zemo Svaneti bölgəsində daha dərin hərbi reydlər planlaşdırır. Həmçinin, bu fəaliyyəti Poti limanında da etmək niyyətindədir. Bu yolla Rusiya Qərb üçün bizim limanlarımızdan istifadəni və gələcəkdə Anakliya/Lazika limanının inşasını məhdudlaşdırmağı planlayır". Keçmiş prezidentin fikrincə, Gürcüstan hakimiyyəti nə qədər sakit dayansa da, Rusiya öz planlarını tətbiq etməyə çalışacaq. Saakaşvili əlavə edib ki, Rusiya 2009-cu ildə də bu planı həyata keçirmək istəyib. Lakin həmin dövrdə ABŞ dövlət katibi vəzifəsini icra edən Co-Baydenin müdaxiləsi nəticəsində bu plan baş tutmayıb.

**Saakaşvilinin iddiasını "Şərq"ə dəyərləndirən politoloq Zaur İbrahimli deyib ki, sabiq prezidentin fikirlərində Rusiyanın maraqları düzgün ifadə olunub. Analitikin fikrincə, Kreml üçün Qara dəniz limanlarına nəzarət etmək, yaxud, üçüncü qüvvənin təsirinə düşməməsinə nail olmaq strateji əhəmiyyət daşıyır:** "Təsadüfi deyil ki, Anakliya limanının yenidən qurulması planları yarımçıq qaldı. Kremlə daha loyal yanaşan İvanişvili iqtidarı işləri dayandırmağa müvəffəq oldu. Moskva təbii ki, orta və uzaq perspektivdə bu limanların üçüncü qüvvə tərəfindən hərbi məqsədlər üçün istifadə olunmasına mane olmağa çalışır. Yaxud Rusiyanın maraqlarının hansısa formada nəzərə alınması ilə bağlı Gürcüstanla hüquqi qüvvəyə malik anlaşma əldə etmək istəyir. Əslində Rusiyanın ABŞ və NATO-ya təklif etdiyi şərtlərdə bu məsələlər də var. Ruslar onların "maraqlar zonası" hesab etdiyi məntəqələrdə NATO hərbi infrastrukturunun yerləşdirilməməsini əsas şərt kimi irəli sürür. Gürcüstan isə xüsusi qeyd edilir. Bu baxımdan Gürcüstanın keçmiş prezidentinin analizi reallığı əks etdirir. Lakin Rusiyanın Gürcüstana hazırkı vəziyyətdə hücum edəcəyi ehtimalı çox azdır. Gürcüstan iqtidarı Rusiyaya qarşı loyallıq nümayiş etdirir. Eyni zamanda Abxaziya və Cənubi Osetiya hələ də rusların nəzarətindədir. Bu, Kremlə Gürcüstanın Qara dənizə çıxışına nəzarət imkanları verir. Hazırda Rusiyanın Gürcüstana hücumuna əsas verəcək, bunu zəruri edəcək obyektiv amillər yoxdur".

**İsmayıl**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**

# Bütün məktəblər sürətli internetlə təmin olunmalıdır

## Pedaqoji kadrların İKT üzrə hazırlığı da diqqətdən kənarda qalmamalıdır

**Ölkədə informasiya-kommunikasiya texnologiyalarının inkişafı dövlət proqramı çərçivəsində həyata keçirilir. Elektronlaşma, rəqəmsal texnologiyalar təhsil sektorundan da yan keçməyib. Bir neçə il əvvəl ümumtəhsil məktəblərinin internet şəbəkəsinə qoşulması, sinif otaqlarının kompüterlərlə təminatı şagirdlərin müasir texnologiyalara çıxışını təmin etdi. Son illərdə isə bu sahədə işlər daha da sürətlənib.**

Təhsil Nazirliyinin məlumatında qeyd olunur ki, Azərbaycanda sürətli fiber-optik bağlantı ilə təmin olunan təhsil müəssisələrinin sayı artmaqdadır. Hazırda, Azərbaycan Təhsil Şəbəkəsi (ATŞ) ümumilikdə 4292 təhsil müəssisəsini əhatə edir. Ötən 2021-ci il ərzində 478 təhsil müəssisəsi sürətli fiber-optik bağlantı ilə ATŞ-yə qoşulub. Nəticədə fiber-optik bağlantı ilə şəbəkəyə qoşulmuş ümumtəhsil müəssisələrinin sayı ümumilikdə 726 müəssisəni əhatə edib. Fiber-optik internet bağlantısının təmin edilməsi məktəblərdə məlumatların ötürülmə sürətinin artırılması, yeni Wi-Fi zonalarının yaradılması, sinif otaqlarında yeni kompüter avadanlıqlarının qoşulması və bununla da daxili şəbəkənin genişləndirilməsini mümkün edib. Bununla yanaşı, məktəblərdə tədrisin innovativ formatda təşkil olunması, dərslərin kəsintisiz distant formatda keçirilməsi və dərs zamanı interaktiv alətlərdən istifadə üçün geniş imkanlardan faydalanmaq imkanı yaradılıb. Qeyd edək ki, Azərbaycan Təhsil Şəbəkəsi müxtəlif pillələr üzrə təhsil müəssisələrini, eləcə də təhsil sahəsində dövlət siyasətini həyata keçirən qurumları vahid şəbəkədə birləşdirən təhsil sahəsində ölkənin ən böyük daxili şəbəkəsidir. Azərbaycan Təhsil Şəbəkəsinin təqdim etdiyi başlıca imkanlar internetə yüksək sürətli çıxışın təmin olunması, internetin zərərli məzmunlardan filtrasiyası, internet şəbəkəsinin qurulması və internet üzərindən rabitənin (İP telefoniya, video-konfrans) təşkili, təhsil müəssisəsində videomüşahidə xidmətinin qurulması, eləcə də şəbəkə və avadanlıqlara texniki dəstək xidmətinin göstərilməsidir.

**Məsələ ilə bağlı ”Şərq”ə danışan təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, burada söhbət ümumtəhsil məktəblərinin sürətli internet şəbəkəsinə nə dərəcədə qoşulmasından gedir:**

- Bir halda ki, ümumilikdə informasiya texnologiyalarına şagirdlərin çıxışından danışırıq, burada əsas məsələ ümumtəhsil məktəblərinin sürətli internet təminatıdır. Azərbaycan Respublikası Prezidenti 2004-cü ildə ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramının təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunurdu ki, Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər) təsdiq edilsin. Proqramın baş icraçısı və nəzərdə tutulan tədbirlərin əlaqələndiricisi Azərbaycan Respublikasının Təhsil Nazirliyidir. Nazirlər Kabineti də bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir. Daha sonra 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı qəbul edildi. Dövlət Proqramında da açıq şəkildə qeyd olunurdu ki, biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir.



Tam əminliklə demək olar ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti ilk növbədə onların İKT-dən səmərəli istifadəsi ilə müəyyənləşməklə formalaşır. İKT-nin təhsildə tətbiqi və inteqrasiyası Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına birbaşa təsir edən yüksək mahiyyətli məsələdir. Ötən dövr ərzində təhsil sistemində İKT-nin tətbiqi sahəsində müxtəlif layihələr və tədbirlər hazırlanıb həyata keçirilib. Təhsil müəssisələrində İKT infrastrukturunun qurulması prosesi aparılıb. ”2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı” qəbul edilib və Dövlət Proqramı qeyd olunan məsələlərin səmərəli və kompleks şəkildə həllinə yönəlib. İKT-nin ümumtəhsil məktəblərinə tətbiqi təkcə şagirdləri nəzərdə tutmur. Pedaqoji kadrların İKT üzrə hazırlığı da diqqət mərkəzində olmalıdır. Burada məsələ informasiya və kommunikasiya texnologiyalarının təhsil sisteminə inteqrasiyası və təhsil prosesinin məzmunca modernləşməsidir. Bütün təhsil pillələri üçün İKT üzrə proqramlar hazırlanmalıdır, xüsusilə də distant təhsil nəzərə alınmalıdır. Pandemiya dövründə müşahidə etdik ki, həm məktəblərin, həm də şagirdlərin internetə çıxışında problemlər yarandı. Sürətli internetdən, ümumiyyətlə danışa bilmirik. Məktəbdə 6-dan artıq kompüterin şəbəkəyə qoşulması mümkün olmurdu. Eləcə də distant təhsil formasına keçən şagirdlər dərslərə onlayn qoşulmada xeyli problemlə üzləşirdilər. Eləcə də müəllimlər. Onlayn dərsləri normal şəkildə tədris edə bilmirdi. Tədris proqramlarında axsamalar yaranırdı. Pandemiya hələ bitməyib. Ona görə də bu problemin həlli vacibdir. Müasir dünyada məsafədən təhsil populyardır. Pandemiya oldu, olmadı, distant təhsil getdikcə üstünlük qazanır. Bunun üçün də sürətli, kəsintisiz və keyfiyyətli internet xidməti təmin edilməlidir. Sürətli fiber-optik bağlantı ilə təmin olunan təhsil müəssisələrinin sayı 726 göstərilib. 4432 ümumtəhsil məktəbin mövcudluğu qarşılığında bu rəqəm kiçik görünür. Qısa zamanda daha çox ümumtəhsil məktəbinin fiber-optik bağlantıya çıxışına imkan yaradılmalıdır. Təhsilimizin gələcəyi, şagirdlərin informasiya-kommunikasiya texnologiyaları ilə işləmək bacarığının nə dərəcədə formalaşacağı bundan çox asılıdır.

**"İKT-nin təhsildə tətbiqi və inteqrasiyası Azərbaycan vətəndaşlarının müasir biliklərə və bacarıqlara malik olan yeni nəslinin formalaşmasına birbaşa təsir edən yüksək mahiyyətli məsələdir"**

**Mələhət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# 3 aya yazıldı

## Yunus Oğuzun "Uçurum" romanı təqdim olundu



**Azərbaycan Yazıçılar Birliyində ”Olaylar” qəzetinin baş redaktoru, yazıçı Yunus Oğuzun ”Uçurum” romanının təqdimat mərasimi keçirilib.**

Toplantıda Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, xalq şairi, deputat Sabir Rüstəmxanlı, ”525-ci qəzet”in baş redaktoru Rəşad Məcid, filologiya elmləri doktoru, millət vəkili Nizami Cəfərov, ”Ədalət” qəzetinin baş redaktoru, millət vəkili Aqil Abbas, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova və yazıçının digər qələm dostları iştirak ediblər.

**Nizami Cəfərov çıxışında bildirib ki, ”Uçurum” ən yeni tariximizin önəmli romanlarındandır:**

”Yazıçının əsərə seçdiyi baş qəhrəman məğlubedilməzdir. Ümumilikdə ”Uçurum” hər bir gömrük işçisinin oxuyub istinad edə biləcəyi bir kitabdır. Yunusun əsərlərinin təqdimatında Kiyevdə , Daşkənddə də iştirak etmişəm. Hazırda o, Özbəkistanda ən çox oxunan yazıçılardandır”.

**Mərasimdə S.Rüstəmxanlı məktəblərdə tədris olunan yeni tarix fənninə diqqət çəkib:**

”Bu tarixin SSRİ dövründə tədris olunan tarixdən fərqlərini araşdırmaq lazımdır. Tarixə yeni baxış olduqca önəmlidir. Bizim orta məktəblərdə şagirdlərimiz nə vaxtdan yeni tarixlə bəslənəcək? Gələcəkdə AYB ədəbiyyatçılar ilə yeni tarixə baxış haqqında müzakirələr keçirə bilər. Beləcə biz bu yöndəki problemləri müxtəlif dairələrə çatdıra bilərik. Özünüz AMEA-dakı hazırkı vəziyyəti görürsüz. Bu barədə heç danışmaq istəmirəm. Amma tarix bizdən uzaqlaşdıqca nağıla çevrilir. Bunun qarşısını almalıyıq”.

E.Qarayeva ”Uçurum”da əsrimizin bəlası olan narkomaniyaya qarşı mübarizənin önə çəkildiyini vurğulayıb:

”Romanda bu bəlanın hardan başladığı, necə davam etdiyi barədə məlumat verilib. Burda gənclər üçün önəmli mesajlar var”.

**Ə.Amaşov isə son dönəmlərdə tarixi romanların böyük maraqla qarşılanmasından söz açıb:**

”Artıq ”Leyli və Məcnun”, ”Romeo və Cülyetta” kimi romanlar az oxunur. Dünya tarix öyrənməkdə maraqlıdır. Bəlgəsəl əsərlərə diqqət artıb. Bu baxımdan Yunus Oğuzun yeni tarixi romanını da yüksək qiymətləndirirəm. Yeri gəlmişkən, biz də kitab oxuyanların azlıq təşkil etdiyini bilirik. Gəlin, bunun səbəblərini də düşünək”.

**Sonda yazıçı özü yeni nəşr olunan kitabından danışıb və tədbir iştirakçılarına təşəkkür edib:** ”Əsər Dövlət Gömrük Komitəsinin 30 illik yubileyinə həsr olunub. Burda müxtəlif tarixi dövrlər əksini tapıb. İnsanın şəxsiyyəti, sosial həyatı, sonda da siyasi sistemdəki uçurumdan söz açılıb. Burda dünyanın ən böyük bəlalarından biri olan narkomaniya mövzusuna toxunulub. Bir cəmiyyəti məhv etmək üçün orda narkotik vasitələri yaymaq kifayətdir. Əsərdə gömrük işçilərinin narkotiklərə qarşı gərgin mübarizəsi göstərilib. Belə bir romanı yazmağım üçün təxmini üç aya yaxın vaxt lazım oldu. Bəlkə gələcəkdə bunun ikinci, ya da üçüncü variantı da yazıldı. Bilirik ki, mafiya ölməzdir. Reallığa əsaslandığı və günümüzlə səsləşdiyi üçün uğurlu olacaq deyə düşünürəm. Təqdimatda iştirak edən hər kəsə təşəkkür edirəm”.

**Günəş Mərd**

# Tarix həmişə göstərib

## Savaşdan sonra qonşular birgə yaşamaq məcburiyyətindədir

**Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov ötən ilin dekabr ayında Azərbaycan və Ermənistanın ictimaiyyət nümayəndələri arasında keçirilən görüşdən danışıb.**

O, 2022-ci ildə əlaqələrin davam etdirilməsi məsələsinin müzakirə edildiyini vurğulayıb. Səfir qeyd edib ki, növbəti görüşün dəqiq tarixi məlum deyil.

M.Boçarnikovun sözlərinə görə, üçtərəfli işçi qrupunun fəaliyyəti ictimaiyyətə müsbət təsir göstərəcək. Xatırladaq ki, 2021-ci il dekabrın 23-24-də Moskvada iki ölkənin ictimaiyyət nümayəndələrinin ilk görüşü baş tutub. Görüşə Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy da qatılıb. Görüş iştirakçıları iki xalq arasında münasibətlərdə gərginliyin azalması tədbirlərini müzakirə edib. Həmçinin 2022-ci ilin əvvəllərində bu cür təmasların davam etdirilməsi barədə razılığa gəliblər.

**Xalq diplomatiyasının önəmindən bəhs edən Azəri-Türk Qadınları Birliyinin sədri Tənzilə Rüstəmxanlı ”Şərq”ə bildirib ki, müəyyən müddətdən sonra münasibətlərdə normallaşma prosesinə şahid olmağımız mümkün haldır:**

”Tarix bizə göstərir ki, savaşlardan sonra sərhəd qonşuları istəməsələr belə birgə yaşamaq məcburiyyətindədirlər. Azərbaycanla Ermənistan da qonşu ölkələrdir. Xalq diplomatiyası iki ölkə əhalisi arasında münasibətlərə müsbət təsir etmə potensialındadır. Erməni ziyalıları xalq diplomatiyası missiyasını öz xalqlarının yaxşılığı üçün yerinə yetirməlidirlər. Onlar öz xalqına izah etməlidir ki, daimi düşmənçiliklə, kinlə yaşamaq olmaz. İki ölkə ziyalıları bir araya gəlib məsələnin həllinə mühüm töhfə verə bilərlər. Lakin Ermənistan təxribatlarına davam edərsə, danışıqlar prosesi nəticəsiz qalar”.



***“Azərbaycan və Ermənistanın xalq diplomatiyası iki ölkə əhalisi arasında münasibətlərə müsbət təsir etmə potensialındadır”***

**Xanlar ƏLİBƏY**



# Rusiya Azərbaycanın əsas iqtisadi tərəfdaşıdır

## 14-dən çox rus şirkəti Qarabağda fəaliyyət göstərmək niyyətindədir

**İndiyədək 14 Rusiya şirkəti Qarabağda yenidənqurma işlərində iştirak etmək üçün müraciət edib. Bu barədə Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov keçirdiyi mətbuat konfransında deyib.**

Səfir bildirib ki, ötən il Rusiyadan iki biznes missiya qrupu Azərbaycana səfər edib. Onun sözlərinə görə, keçirilən biznes forumlarda iqtisadi sahədə əməkdaşlıq müzakirə olunub: ”Bura Qarabağda fəaliyyət də daxildir. Rusiya şirkətləri Qarabağda kənd təsərrüfatı, tikinti materialları, dəmiryolu xətti, enerji obyektlərinin tikilməsi və s. sahələrlə bağlı müraciət ediblər. Lakin bu şirkətlərin neçəsinin müraciətinin qəbul olunacağı hələ bəlli deyil”. Mixail Boçarnikov vurğulayıb ki, Rusiya-Azərbaycan iqtisadi sahədə aktiv əməkdaşlıq edirlər: ”Ötən il prezidentlər arasında aktiv təmaslar olub. Azərbaycan və Rusiya prezidentləri 4 dəfə görüşüblər. Keçən ilin 11 ayı ərzində iki ölkə arasında ticarət dövriyyəsi 2,9 milyard dollar olub. Epidemioloji vəziyyət normallaşdıqdan sonra ölkələr arasında quru sərhədlər açıla bilər. Hava yolları açıqdır. Bu reylər həm vətəndaşların vacib səfərləri, həm turizm səfərlərinin həyata keçirilməsini təmin edir”. Səfir Rusiyanın təşəbbüsü ilə yaradılan iqtisadi birliklərə Azərbaycanın daxil olub-olmaması barədə bunları deyib: ”Avrasiya İqtisadi Birliyinə qoşulub-qoşulmamaq Azərbaycanın suveren hüququdur. Bununla bağlı qiymətləndirmə doğru olmaz”.

**Rusiya-Azərbaycan iqtisadi əməkdaşlığı ilə bağlı ”Şərq”ə danışan iqtisadçı-alim Fuad İbrahimov bildirib ki, şimal qonşumuz Azərbaycanın əsas iqtisadi tərəfdaşı, ticarət dövriyyəsi ən yüksək olan partnyorudur. Ekspert xatırladıb ki, milyonlarla həmvətənimizin Rusiyanın müxtəlif bölgələrində aktiv iqtisadi fəaliyyətlə məşğul olması iki ölkə arasındakı əlaqələrə də təsir göstərir:** ”Rusiyanın qonşu ölkə kimi iqtisadi əhəmiyyəti danılmazdır. Azərbaycan heç bir qonşu ölkə ilə münasibətləri gərginləşdirmək niyyətində olmayıb. Hər zaman normal qonşuluq əlaqələrinin inkişafında maraqlı olmuşuq və bunun üçün zəruri addımlar atmışıq. Reallıq odur ki, azərbaycanlıların özlərini ən rahat və sərbəst apardıqları ölkələrdən biri Rusiyadır. O baxımdan Moskva bizim üçün əlverişli iqtisadi tərəfdaş sayılır. Əlbəttə, Rusiyanın bir çox siyasi proseslərdə baxışı, yanaşması bizi qane etmir və buna da ən yüksək səviyyədə reaksiya verilir. Lakin bütün problemlərə rəğmən, iqtisadi əməkdaşlıq axsamadan davam etdirilir”.

**F.İbrahimov qeyd edib ki, Rusiya şirkətlərinin Qarabağda fəaliyyət göstərmək arzusunda olması yeni deyil:**

”Bir müddət öncə xəbər yayıldı ki, Rusiyanın ”Kamaz” şirkəti Azərbaycanda ”K5” nəsil avtomobillər üçün xidmət mərkəzi tikəcək. Gəncə Avtomobil Zavodu ilə birlikdə Qarabağda belə bir obyektin inşası ilə bağlı razılaşmalar əldə edilib. Səfir 14 şirkət deyir, amma əldə etdiyimiz məlumata görə, daha çox rus şirkətləri Qarabağda fəaliyyət göstərmək niyyətindədir. Əlbəttə, müəyyən araşdırmalardan və seçimlərdən sonra rus şirkətlərinin Qarabağdakı quruculuq və bərpa işlərində iştirakına imkan yaratmalıyıq. Nəzərə alaq ki, qeyri-neft sektorunun, əsasən də kənd təsərrüfatının inkişaf potensialı məhz Qarabağ torpaqları ilə bağlıdır. Dünyanı iqtisadi maraqlar idarə edir. Bütün siyasi maraqların arxasında güclü iqtisadi dayaqlar olmalıdır. Əks halda siyasi iddialar da iflasa məhkumdur. Bu baxımdan Azərbaycan da Rusiya üçün önəmli strateji tərəfdaşdır”.

**İsmayıl Qocayev**

Vaqif Yusifli

# Sevgilərlə yaşayan şair

**QADININ yaşını xatırlamazlar, üzünə deməzlər, çünki qadın bütün ömrü boyu onu tanıyanların, xüsusilə, həyat yoldaşının gözündə heç vaxt solmayan bir çiçəkdir... Amma o qadın ki, şair ola, günlərini, aylarını, illərini şeirlə baş-başa verə, özü də şeir-sənət aləmində seçilə, fərqlənə, o zaman yaşın dilə gətirilməsi nöqsan sayılmaz. Bizim yaxşı tanıdığımız Nəzakət Məmmədinin yanvar ayının 13-də altmış yaşı tamam olur. Desəm ki, bu 60 yaşın 40 ili ancaq şeirlə keçib, əlbəttə, yalan olar.**

Çünki şairin şeir yazmadığı günlər, aylar, hətta illər olur, amma şair hər nəfəs alıb verdiyində də şairdir. Nəzakət Məmmədli ictimai işlərlə də məşğul olub, çoxlu ailə-məişət qayğıları olub, yollarda, şəhərlərdə gün keçirib, naşirlik, redaktorluq fəaliyyəti də göz qabağındadır, "Kitab evi" İctimai Birliyinin icraçı direktorudur, Respublika Xatirə Kitabının baş redaktorudur. Onun baş redaktoru olduğu "Yada düşdü" kimi çox dəyərli bir xatirə jurnalını xatırlamamaq olarmı? Bu ədəbi-nostalji jurnal onun yaradıcı tərcümeyi-halının ən uğurlu səhifələridir, - desək, yanılmarıq. Bu qədər məsul işlərdə çalışasan, özü də qəlbinlə baş-başa qalıb lirika ilə nəfəs alasan

Mən söhbətimə Nəzakətin "Azərbaycan" jurnalının keçən il noyabr sayında dərc olunmuş şeirlərindən başlamaq istəyirəm. Bu şeirlər 44 günlük zəfər müharibəsinin onda doğurduğu qürur hissindən yaranıb. Vaxtilə şeirlərində məlum səbəblərdən kədərli duyğular yer alırdı, amma o illərdə yazdığı şeirlərində həm də qələbəyə inam hissi onu tərk etməmişdi. İndi isə:

**Ötən çağlar indi üzü bəridi,**
**Gələn günlər ömrün təzə-təridi,**
**Otuz illik yurd həsrəti əridi,**
**Qarabağa bahar gəlir, İlahi!**

**Ürəklərdə ümid naxış toxuyur,**
**Əllər zəfər nəğməsini oxuyur,**
**İndi Vətən Şuşa ətri toxuyur,**
**Qarabağa bahar gəlir, İlahi!**

Nəzakət xanım Vətən haqqında çoxlu şeirlərin müəllifidir, xüsusilə, "Ömür qatarı" kitabında (2013) onun Vətən sevgisi aşıb-daşır. Onun "Vətən" adlı son şeirini isə "Vətənnamə" adlandırmaq olar. Doğrudur, həcmcə bu şeir digər şeirlərindən fərqlənir, amma 30 bənddən ibarət olan "Vətən" şeirində nə süni ritorikaya, nə şairlərin vaxtilə Vətən haqqında yazdığı şeirlərin təsirinə, nə də əyər-əksiyi bilinən artıq misralara rast gəldik. Şairə Vətən tarixinin səhifələrini vərəqləyir, qürur hissilə tarixdəki ölməzləri yada salır, Vətənin simvolu olan atributlar - adlar şeirdə poetik məna qazanır, əlbəttə, məlum rəmzləri, simvolları, atributları şeirdə mənalandırarkən bədii təsvir vasitələri köməyə gəlir, şairin uğuruna çevrilir. Qeyd edim ki, Nəzakət xanımın şeirlərində təşbihlər, metaforalar, epitetlər silsilə şəklindədir.

**Oğul qeyrətini əyninə geyən,**
**Canlı səngərlərin mübarək, Vətən.**
**İlahi sevgiylə yoğrulubdusa,**
**Hər duyğu -Vətəndi, hər ürək-Vətən.**

**Hər bahar gələndə sızıldayacaq**
**Qırılmış budağın qönçə ağrısı.**
**Bilirəm qəlbində heç uyumadı**
**Zəngəzur həsrəti, Göyçə ağrısı.**



**Əsgərdən başlanır Vətən duyğusu,**
**Harda əsgər varsa, orda Vətən var.**
**Əsgər addımını laylatək duyur,**
**Torpağın altında şəhid yatanlar.**

Nəzakət xanımın son illərdəki şeirlərinin bir qismini tərəddüd etmədən əsgər nəğmələri adlandırmaq olar. Məsələ burasındadır ki, onun oğlu Ramil milli ordumuzun zabitidir, komandirdir. "Bu vətən boydadır indi qucağın, Zəfərin mübarək, komandir oğlum!" - Ramilə həsr etdiyi digər şeirlərində də Nəzakət xanım həm bir Ana, həm də vətənpərvər bir şairdir. İndi "vətənpərvər şair" ifadəsi tez-tez işlənir və bunu daha çox şairlərin Vətən mövzulu şeirlərində axtarırlar, amma hər Vətəndən yazan şairi vətənpərvər şair adlandırmaq olarmı? O baxır şeirə, o şeirdəki fikrin poetik səslənməsinə, Belinski demişkən: "Hər cür poeziyanın də elə əsl məzmununu təşkil edən budur". Fikrimizcə, otuz illik həsrət dövrü hər bir şairin yaradıcılığında sınaq dövrü oldu. Nəzakətin o illərdə yazdığı bir şeirini xatırlayaq: "Vətən, bizi bağışlama". O şeirdə bir Azərbaycan qadınının ümidlə ümidsizlik arasında çırpıntıları əks olunub. Hamımız intizar içində idik, çoxumuz "bu qan yerdə qalacaqmı?" deyə düşünürdük. Və Nəzakətin həmin şeirdəki son arzusu hamımıza aid idi: "Qarabağda bayrağımız öyünə, Öpsün Vətən torpağını gözlərim". Nəzakət xanımın şeirlərində də Dərd adlı bir obraz haray çəkirdi:

**Dərdlər çeşid-çeşid, dərdlər növbənöv,**
**Göyün yer dərdi var, yerin göy dərdi..**
**Bu cadar səhralar yağışa həsrət,**
**Bu cadar dodaqlar çəkir ney dərdi.**

**Gör neçə illərdi gör-gör göynəyir,**
**Qaçqının yurd dərdi, vətən dərdi var.**
**Yüz il əkilməyən torpağımızın**
**Köksündə sızlayan kotan dərdi var.**

**Yuxusu nə vaxtdı ərşə çəkilib,**
**Pullunun bir yatır, dövlət dərdi var.**
**Qarabağ qalıbdı boynu bükülü,**
**Yatmış vicdanların qeyrət dərdi var.**

Amma İntizar da bitdi, ümid boy atdı, şaxələndi, o Vətən dərdi də onun şeirlərindən uzaqlaşdı.

Nəzakət Məmmədlini bir kimsə ədəbiyyata gətirməyib, amma bir böyük şairin-Musa Yaqubun onun yaradıcılığına təsiri şəksizdir. Elə 2009-cu ildə ilk şeirlər kitabına ön sözü də Musa müəllim yazmışdı. Nə yazmışdı: "Tanrı sevgisi istedadın olması, şeirin ürəkdə yaranması üçün ilkin şərtdir. Ancaq bununla da iş bitmir, gərək hisslərin şeirə çevrildiyi anda sözün tutarına, ifadələrin səlisliyinə bədii hikmətin inandırıcı və təbii olmasına çalışasan. Bunun üçünsə ilkin şərt sözün məsuliyyətini dərk etməkdir. Bu mənada Nəzakətin şeirlərini həqiqi hisslərin, yaşanmış duyğuların sözlə çəkilmiş ifadəsi adlandırmaq olar".

"Həqiqi hisslər, yaşanmış duyğular"-fikrimizcə, Musa müəllim Nəzakətin şeirlərindəki başlıca xətti düzgün müəyyənləşdirmişdi və Nəzakət bütün yaradıcılığı boyu ustadın etimadını doğrultmağa çalışdı.

Nəzakət Məmmədlinin ikiminci illərdə yazdığı bütün şeirlərinə nəzər yetiririk, bu şeirlərdə Vətən, Təbiət və Sevgi üçbucağını əks etdirən və onun bir şair kimi özünəməxsusluğunu açıqlayan nümunələr az deyil. Onun "Payız" şeirindəki bu iki bəndə diqqət yetirin.

**Düşüb yol gedirəm tale boyunca,**
**Hər yanda önümə çıxır bu payız.**
**Bacımın ağaran telindən düşür,**
**Anamın qəbrindən baxır bu payız.**

**Bu payız elə bil acığa düşüb,**
**Yayın günəş rəngin pozur beləcə.**
**Hayana çatırsa, sarı qələmlə**
**Özünün adını yazır beləcə.**

Təbiətdən, onun gözəlliklərindən, ilin fəsillərindən şeir yazan şairin öz içində də o təbiət və onun fəsilləri yaşamalıdı ki, əsl təbiət şeiri yarana.

Nəzakətin sevgi şeirləri də baharla payızın arasında dövr edir. Əgər sevgi ilkin çağındadırsa, vüsalla hicran arasında dövr edirsə, onda bu misralar gəlir: "Səninlə açılır sabahım, - dedim, Sənsiz gündüzüm də axşam kimidi. Səni haraylayan, səni oxşayan Ümidim sinəmdə ağ şam kimidi". Yox əgər insan ömrünə sevginin payızı gəlirsə, xatirələr dilə gəlir, bir vaxtlar yaşanan sevginin ilğımları gözə dəyir, çatmaq istəyirsən, amma mümkün deyil. Onda sevgidən ağlamaq da olar, hıçqırmaq da: "Varsa yar yolunda nigaranlığın, Ürəyin bulud tək dolubsa, ağla". Ya da: "Həsrət yollarının yorğunuyam mən, Məni tək qoymusan qəmin yanında".

Əlbəttə, Nəzakət xanımın sevgisi yalnız fərdi, subyektiv, "mən və sən" dueti ilə məhdudlaşmır, lap öncədən qeyd etdiyimiz Vətən sevgisini, anasına sevgilərini, təbiətə, həyatın gözəlliklərinə olan sevgiləri də özündə əks etdirir.

Altmış yaşına həyat eşqi, yaradıcılıq eşqi ilə gələn Nəzakət Məmmədliyə elə ömrü boyu bu sevgilərlə yaşamağı arzulayırıq!



## Zövqlər fərqlidir

Lalə ilə Elnarə arasında qalmaqal yaşanır

**Müğənni Elnarə Xəlilova onu zövqsüz adlandıran stilist Elnur Həsənova sərt reaksiya verib.**

Axşam.az xəbər verir ki, ifaçı stilistin makiyajlarını pisləyib, onun işinə bəyənmədiyini vurğulayıb.

Elnurla yanaşı Elnarə onun yaxın dostu olan Əməkdar artist Lalə Məmmədovaya da söz atıb. Belə ki, o, Lalənin "TRT" kanalında çıxışı zamanı geyiminin problem yaratmasını qınayıb.

L.Məmmədova da onun rəyini cavabsız qoymayıb. O, reaksiyasını bu sözlərlə ifadə edib:

"Həddini bilmədikdən sonra, çox şey bilmək mənasızdır. Susqunluq heç kimi çaşdırmasın, çünki susan danışsa dözən olmaz".

*Qeyd edək ki, L.Məmmədova mərhum müğənni Kayahanın xanımı İpek Acarın proqramında qonaq olub. Çəkiliş zamanı onun libasının sinə dekoltesinin bağlanması istənilib.*


Elan

Qəniyev Rəşad Hafiz oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Salehova Sevil Aydın qızına məxsus Abşeron Gənclər Şəhərciyi, blok 18, mən. 22-yə olan evin müqaviləsi itdiyi üçün etibarsız sayılır.

Nəbiyev Calal Nizami oğluna Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən verilmiş B № 212715 diplom itdiyi üçün etibarsız sayılır.



Beynəlxalq İxtiraçılıq
və Biznes İnstitutu
KURSLAR
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
Tel: (012) 489-08-84
Mob: (070) 241-28-67
www.az-baku.com


# "Şagirdi həbs edəsi deyilik ki..."

## Nabatəli Qulamoğlu: "Məktəbə gələn uşaqların tərbiyəsində müəllimdən çox valideynin payı var"

**Ötən gün sosial şəbəkələrdə şagirdlərin sinif otağında tədris prosesinə uyğun olmayan davranışlarının əks olunduğu videogörüntülər yayılıb. Araşdırmalar nəticəsində videonun qeydə alındığı təhsil ocağının Bakı şəhərinin Xətai rayonunda yerləşən 165 saylı tam orta məktəb olduğu müəyyən olub.**

Məktəbdən verilən məlumata görə, bununla bağlı məktəb rəhbərliyi tərəfindən araşdırma aparılıb. Dərsin təşkilində yol verdiyi nöqsanlara görə fənn müəlliminə töhmət verilib. Həmçinin hüquqmühafizə orqanlarının əməkdaşları tərəfindən valideyn və şagirdlərin izahatları alınıb. Üzrxahlıq edən şagirdlər bir daha belə hallara yol verməyəcəklərini bildiriblər. Şagirdlər müvafiq qaydada profilaktik tədbirlər görülməsi üçün qeydiyyata götürülüb.

**Təhsil eksperti Nabatəli Qulamoğlu bu barədə "Şərq"ə bildirib ki, məktəbdə hər bir şagirdin rahat olması üçün şərait yaradılmalıdır. Amma nəzərdə tutulan rahatlığı tərbiyəsizliklə qarışdırmaq olmaz:**



"Bizdə çox vaxt şıltaqlıqla tərbiyəsizliyi səhv salırlar. Belə məqamlarda şagirdlərə verilən ən təbii cəza onların üzr istəməsidir. Həbs edəsi deyilik ki?! İndi bu şagirdlərə ağır cəza verilməsini tələb edənlər nə vaxtsa özlərinin də belə yaş dövründə etdiklərini yada salmalıdır".

**Təhsil ekspertinin fikrincə, bizim cəmiyyət çox aqressivdir və bu aqressiya məktəblərə də inteqrasiya edib:**

"Mən müxtəlif dövlət idarələrinə getmişəm. Orda ədəbsiz ifadələrin işləndiyinin şahidi olmuşam. Hansı ki, bu adamlar daha kübar olmalıdır. Düşünürəm ki, belə olduqda şagirdlərin bu əməlini də çox dramatikləşdirmək olmaz".

**N.Qulamoğluya görə, belə hadisələrdə istənilən halda müəllimin günahkar sayılması düzgün deyil:** "Axı məktəbə gələn uşaqların tərbiyəsində müəllimdən çox valideynin payı var. Belədirsə, nəyə görə valideynə töhmət verilmir? Hər bir işdə müəllimin günahkar sayılması da ədalətli deyil. Müəllimin özü ictimai mühitin məhsuludur. Əgər onda problem varsa, bunun günahını da ictimai mühitdə axtarmaq lazımdır".

**Günəş Mərd**

# Böyük maraqla izlənilən "Azercell Hackathon 2022" yarışması başa çatdı!

**"Azercell Telekom" MMC-nin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Azercell Hackathon 2022" yarışması 25 yanvar tarixində başa çatıb. "Hackathon"da müxtəlif bacarıqlara malik, innovativ düşüncəli və potensiallı gənclər təqdim edilən texnoloji tapşırıqların ən uğurlu həllinin tapılması istiqamətində yarışıblar.**

"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədini əsas tutan Azercell Telekom müsabiqə vasitəsilə proqramçı gənclərin rəqabət şəraitində biliklərini yoxlamasına, özünü tanıtmasına, müxtəlif proqram, innovativ məhsul və xidmətlərin meydana gəlməsinə şərait yaradır.

22-23 yanvar tarixlərində keçirilən "Azercell Hackathon 2022" müsabiqəsində 36 nəfərdən ibarət 12 komanda iştirak edib. Tədbirin açılışından sonra komandalar onlara verilən tapşırıqlar üzərində işləməyə başlayıblar. "Hackathon"boyunca iştirakçılara Azercell-in peşəkar İnformasiya Texnologiyaları və İnsan Kapitalı komandaları dəstək olub.

Qeyd edək ki, bu yarışmada iştirak üçün 30-dan çox komanda müraciət edib, ilkin mərhələdə onlardan 12-si seçimdən uğurla keçərək müsabiqəyə vəsiqə qazanıb. 23 yanvar tarixində müsabiqəyə ayrılan vaxtın sonunda iştirakçılar tapşırıqlara uyğun hazırladıqları texnoloji həlli təqdim ediblər.

Yarışmanın yekun mərhələsi yanvarın 25-də ADA Universitetində baş tutub. Final zamanı iştirakçı komandalar yekun təqdimatları ilə münsiflər qarşısında çıxış ediblər. Tapşırıqları tələb olunan meyarlara uyğun şəkildə və ən yüksək nəticə ilə yerinə yetirən komandalar qalib elan olunublar.

Nəticələrə əsasən "Azercell Hackathon 2022" yarışmasında 1-ci yerə "Enigma", 2-ci yerə "Fayda", 3-cü yerə isə "Code Geass" komandası layiq görülüb. Qaliblərə tutduqları yerlərə müvafiq olaraq 3000 AZN, 1500 AZN dəyərində pul mükafatı və qiymətli hədiyyələr təqdim olunub.

Mükafatlandırma tədbirində təşkilati dəstəyi ADA Universiteti göstərib.




"Azercell Telekom "MMC qalibləri təbrik edir, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayır. Şirkət gənclərin elmə, təhsilə, innovativ yanaşmaya, texnologiyalara və rəqabətədavamlı biliklərə yiyələnməsinə hər zaman xüsusi önəm verir və bu istiqamətdə təşəbbüs və layihələri davam etdirəcək.


Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 235



# Sevgilisi anasını döydü

## Neymar xəbərdən dəliyə döndü

**Braziliyalı uldiz Neymar 54 yaşlı anasının 26 yaşlı sevgilisi (!) tərəfindən döyüldüyü xəbərini alıb dəliyə dönüb.**

Ananın sevgilisi də keçmiş futbolçu, hazırda modelliklə məşğul olan Tiago Ramosdur. Məlum olub ki, Ramos sevgilisinə - anası yaşındakı qadına qarşı zorakı davranıb. Ədəbsiz! Bunu bilən Neymar da əsəbindən dəliyə dönüb və "onu öldürəcəyəm!" deyə, təhdid edib. Neymarın anası Nadine zorakılıq gördüyü sevgilisindən ayrılaraq evi tərk edib. "Şərq" "Milliyet.com"a istinadən bildirir ki, bu, sevgililər arasında yaşanan ilk münaqişə deyil. Bundan əvvəl də bir neçə dəfə Nadine sevgilisi tərəfindən zorakılığa məruz qalmışdı. Bu dəfə isə münaqişə daha da böyüyüb. Hadisə San-Paulo əyalətində Neymarın anası üçün kirayələdiyi evdə baş verib. Deyilənə görə, içki şüşələri havada "uçuşurmuş", bağırtı, qışqırıq səsləri bütün məhəlləyə yayılıbmış. Sonra da Nadinenin ağlamaq səsə gəlib. Münaqişəyə səbəb isə Nadinenin Ramosdan şikayətçi olmağı planlaşdırmasıymış. Ramos bunu bilib və qadına hücum çəkib. Ramos evdən çıxan kimi Nadine də evdən ayrılıb də Santos şəhərinə gəlib. 2020-ci ildə də sevgililər dalaşmışdı, polisə düşmüşdülər, nəzarət altına alınmışdılar. Budəfəki dava-dalaşdan xəbər tutan Neymar isə dostlarıyla danışan zaman "orada olsaydım, onu öldürə bilirdim", deyib.

**Məlahət**

# "Falcon 9" Ayla toqquşacaq

## Zərbənin dəqiq yeri hələlik məlum deyil



**2015-ci ilin fevralında buraxılan "Falcon 9" missiyasını tamamladıqdan sonra yanacağı tükəndiyi üçün idarəni itirib.**

4 tonluq raketin yaxın həftələrdə böyük sürətlə Ayla toqquşacağı gözlənildiyi halda, hadisənin 4 mart 2022-ci ildə baş verəcəyi göstərilir.

"Falcon 9" un hərəkətləri astronom Bill Qrey tərəfindən izlənilir. Qrey toqquşmanın martın 4-ü 2022-ci ildə baş verəcəyi qənaətinə gəldiyini açıqlayıb. Amma astronom digər müşahidəçiləri tam miqyaslı tədqiqat və məlumatların toplanması üçün köməyə çağırıb. Zərbənin dəqiq yeri hələlik məlum deyil, çünki raketin trayektoriyasına təsir edə biləcək bir sıra amillər var. Ehtimallara görə, Aya dəyəcək "Falcon 9" raketi Yer üçün heç bir problem yaratmır. Toqquşmanın Yer kürəsindən müşahidəsi gözlənilmir.

**Cəmilə ƏZİM**

# 92 kvadratmetrlik üzən ev yaradılıb



**İtaliyalı memar Giancarlo Zema Londonda "eko-üzən strukturlar" üzrə ixtisaslaşan "EcoFloLife" studiyası ilə birlikdə təkrar emal edilmiş ağacdan və enerjiyə qənaət edən 92 kvadratmetrlik üzən ev yaradıb. Azərtac xarici saytlara istinadla xəbər verir ki, "Waternest 100" adlanan layihənin eni cəmi 10 metr, hündürlüyü isə 5 metrdir. Dam örtüyünün ümumi sahəsi 60 kvadratmetr olan ev günəş panelləri ilə örtülüb, günəşli havada isə 4 kilovat elektrik enerjisi istehsal edə bilir. "Waternest" 100 ev-gəmisi üzmə icazəsi və ya digər mürəkkəb lisenziyalar tələb etmir. EcoFloLife bu tip gəmilər üçün "sakit sular" olan yerləri - çay, göl və körfəzləri seçməyi tövsiyə edir. Ekoloji üzən evin qiyməti təqribən 54 min ABŞ dolları təşkil edir.**

# Podiuma at belində çıxdı

## Növbəti təqdimatlardan birində maraqlı anlar yaşanıb



**Paris moda həftəsi çərçivəsində baş tutan növbəti təqdimatlardan birində maraqlı anlar yaşanıb.**

**Axşam.az xəbər verir ki, dünyaca məşhur mərhum aktrisa Qreys Kellinin nəvəsi Şarlotta Kasiraqi podiuma at belində çıxıb.**

**Dəfilə zamanı geyimlərin təqdimatından öncə bu cür addımın atılması qonaqları təəccübləndirib və onu alqışlayıblar.**

# Milyarder ailənin üçüncü övladı olacaq



**Milyarder Hiltonlar ailəsinin üzvü, müğənni Peris Hiltonun bacısı Niki növbəti dəfə ana olacaq.**

**Axşam.az xəbər verir ki, digər milyarder ailə Rotşildlərin varisi Ceyms Rotşildlə ailə olan Nikinin yay aylarında körpəsini dünyaya gətirəcəyi bildirilib.**

***Qeyd edək ki, bu, cütlüyün üçüncü övladı olacaq. İkilinin 5 yaşlı Lili Qreys Viktoriya və 4 yaşlı Teodora Merilin adlı övladları var. Niki və Ceyms 2015-ci ildə evlənib.***







# Röya kimi evlər!..

## Heyrət etməmək mümkün deyil

**Məlahət Rzayeva**

**"Airbnb" 2021-ci ildə instagram səhifəsində fotoları paylaşılmış və təqibçilər tərəfindən ən çox bəyənilmiş 10 ev barədə açıqlama yayıb. Siyahıda ilk sırada Utah yer alır. Bu ev 60.000 dəfədən çox bəyənilib.**

Siyahıda ABŞ-dakı evlər arasında Corciya valisinin 2 evi, Vermontda cazibəli bir ev, Şimali Karolina ştatındakı ağac ev də yer alır. Həmçinin fransız bağ evi və Serbiyadakı üzən ev də var. Vaxtilə 2 valinin sahib olduğu, Corciya ştatındakı tarixi əsərlərlə zəngin ev, bənzərsiz bir mülk olaraq tanıdılır və 27.096 bəyənmə sayı toplayıb. Ev dörd bir yandan ağaclarla əhatələnib. Dağ kəndlərinə yaxın ərazidə yerləşir. Evin tikilmə tarixi 18-ci əsrə gedib çıxır. Lakin restavrasiya olunub və isti sulu hovuz kimi modern əlavələr də edilib. Böyük ehtimalla turistləri, evdə qonaq qalmaq istəyənlər nəzərə alınıb. Belqradda Sava və Dunay çaylarının birləşdiyi yerdə yırğalanan üzən ev isə siyahıda 7-ci yerdədir. Meksikanın Tulum şəhərindəki ev isə geniş ərazisi və nəhəng pəncərələri ilə diqqət çəkir və görənlərdə "çöl, ev kimi, ev, çöl kimi" təəssüratı yaradır. "Woodlands House" adlanan ev isə qədim meşə ərazisindədir, açıq terrasa malikdir. Siyahıda 5-cidir. ABŞ-da 1968-ci ildə inşa edilmiş, Burke Dağı və Willoughbu gölünə ir neçə dəqiqəlik məsafədə yerləşən ev "A" hərfi formasında tikilib. Monte-Rio-dakı ev də öndə açılan yaşıl gözəllik səbəbiylə izləyicilərdən xeyli sada bəyənmə toplayıb. Ev sahibi bu evi "radikal terapiya" üçün inşa edib.Ev ağacların arasında inşa edilib. Siyahıda iminci sıradadır. Siyahıda birinciliyə sahib isə Utahdakı "Zion Eco-cabin" adlanan evdir. Evin fotosu "Siyon dağları və nəfəs kəsən mənzərə" tanıtımı ilə təqdim edilib. Bu ev bütün digərlərindən daha çox - 61.051 bəyənmə toplayıb.











Gənc ailə olarkən həyat yoldaşı Mürsəl Əhmədov İkinci Dünya müharibəsinə gedib. Bu səbəbdən Fatma nənə min bir zəhmətə qatlaşmalı olub.

Həyat yoldaşı müharibədən yaralı qayıdır. Yarası sağalsa da, sonradan 53 yaşında dünyasını dəyişir. Doqquz övladını təkbaşına böyüdür. O günləri isə kövrələrək xatırlayır.

# 100 yaşlı Fatma nənə

## Doqquz övladı, 57 nəvəsi, 63 nəticəsi və iki kötücəsi var

**Fatma nənənin doqquz övladı, 57 nəvəsi, 63 nəticə və iki kötücəsi var. Yeddi övladına ali təhsil verib, bir oğlu professor olub. Ağbirçək nənə düz bir əsrə şahidlik edib.**

Oxu.az xəbər verir ki, Fatma Əhmədova 1922-ci il yanvarın 3-də Qubanın Növdün kəndində dünyaya göz açıb. Ailə qurduqdan sonra qonşu Şuduq kəndində yaşayıb. Hazırda isə Qubada qızının yanında qalır.

100 yaşlı nənə deyir ki, əlindən hər iş gəlib. Övladlarını boya-başa çatdırmaq üçün özünü oda-közə vurub.

Ağbirçək nənə özünü hazırda çox yaxşı hiss etdiyini bildirir. Dağ havası və təbii məhsullarla qidalanmağın uzun ömür sürməsinin səbəbi olduğunu deyir.

*Qeyd edək ki, Fatma Əhmədova Quba rayonunun yaşı 100-ü ötən yeganə sakinidir.*

# Məşhur türkiyəli cütlük Londona köçdü



**Türkiyənin məşhur aktyor cütlüyü Halit Ergenç və Bergüzar Korel Londonda ev alıblar və artıq bundan sonra Türkiyədə layihələri olmadığı müddətdə ancaq krallıq paytaxtında yaşayacaqlar.**

Məşhur cütlüyün bir müddət gündəmdə olmaması da onların ev axtarışı ilə bağlı London şəhərinə yerləşməsi ilə əlaqədar olub.

Ulduz cütlüyün Londonda hansı ünvanda yaşayacaqları barədə əlavə heç bir məlumat verilmir.

# Məhkəmə qərar verib

## Kemal 2 ay müddətinə Ezgidən uzaqlaşdırıldı



**Türkiyəli aktrisa Ezgi Mola reklam çarxının afişasında yer aldığı musiqiçi Kemal Kahraman tərəfindən təqib və təhdid olunduğunu bildirib.**

Axşam.az xəbər verir ki, aktrisanın 6 ildir davam etdiyini vurğuladığı məsələ ilə bağlı cinayət işi açılıb.

Məhkəmə Kemalın 2 ay müddətinə Ezgidən uzaqlaşdırılmasını qərara alıb.

*Qeyd edək ki, E.Mola hazırda "Masumlar apartmanı" serialında Safiye obrazını canlandırır.*

# Məşhur fotoqraf küçədə donaraq ölüb

## Başından zərbə alan fotoqraf 6 saata yaxın səkidə bu vəziyyətdə qalıb



**Məşhur fotoqraf Rene Rober Parisin mərkəzi küçələrindən birində donaraq ölüb.**

Axşam.az xəbər verir ki, bu barədə məlumatı fotoqrafın yaxın dostu, musiqiçi Mişel Momponte "RTL" radiosunun efirində səsləndirib. Onun sözlərinə görə, Rene yanvarın 18-də axşam saatlarında küçədə gəzərkən huşunu itirərək yerə yıxılıb. Başından zərbə alan fotoqraf 6 saata yaxın səkidə bu vəziyyətdə qalıb. Ətrafdakı insanlar ona nə yaxınlaşıb, nə də təcili tibbi yardım çağırıb. Yalnız səhər saatlarında küçədə yaşayan şəxs ona kömək etmək istəsə də artıq gec olub. Kəllə-beyin travması alan və hipotermiya diaqnozu qoyulan fotoqrafın həyatını xilas etmək mümkün olmayıb.

# 24 konserti ləğv olunub

## Adelin kaprizləri ona baha başa gəldi



**Dünyaca məşhur britaniyalı müğənni Adelin Las-Veqasda baş tutması gözlənilən 24 konserti ləğv olunub.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, buna ifaçının komandasındakı bir çox insanın koronavirusa yoluxması ilə əlaqəli olmadığı ortaya çıxıb. Konsertlərin Adelin kaprizləri səbəbindən ləğv edildiyi iddia olunub.

Jurnalist Skott Roben bildirib ki, konsertlərin keçiriləcəyi məkanda səs və texnologiya sistemi Adeli qane etməyib. O, bütün akustikanın dəyişdirilməsini tələb edib ki, bu da təşkilati prosesdə xaos yaradıb. Nəticədə bütün konsertlər ləğv edilməli olub.

# Hadisə Qədr gecəsi özünə toy edəcək



**Məşhur müğənni Hadisə yaxın zamanlarda ailə həyatı quracaq.**

Milli.Az xəbər verir ki, sənətçinin toy tarixi bəlli olub. Hadisə iş adamı sevgilisi Mehmet Dinçerlərlə aprelin 27-də nikah masasına əyləşəcək.

Həmin tarixdə Qədr gecəsi olduğundan cütlük məhz o gündə ailə həyatı quracaq.

*Xatırladaq ki, Hadisənin özündən 2 yaş kiçik sevgilisi Türkiyədə məşhur iş adamıdır.*